www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 30 avqust 2024-cü il Cümə № 155 (8528) Qiymәti 60 qəpik

**Xəbər**

## Dollarla bağlı yeni iddialar

yazısı səh.12-də

**Gündəm**

### Sülh müqaviləsinə yenə "Qarabağ şərti" israrı



Sülh sənədinə keçmiş münaqişənin salınması təklif olunur - Bakıdan şillə kimi cavablar

yazısı səh.5-də

### Nəsiman Yaqublunun ölümü ilə bağlı istintaq gedir

yazısı səh.3-də

### Kiberdəstə həbs edildi

yazısı səh.4-də

### "Formula 1"ə görə bu yollar bağlanır

yazısı səh.2-də

### Müxalifətin arzusu - parlamentdə fraksiya yaratmaq

yazısı səh.6-da

### Azərbaycanı Strasburqla vidalaşmağa təhrik edirlər

yazısı səh.7-də

### "Fındıq məsələsi" böyüyür

yazısı səh.12-də

### Zəngəzurdan köç artır- hara gedirsən, ara?

yazısı səh.10-da

### Ölkəmizdə ət yeyənlər niyə azalıb - vegetarianlar artıb, yoxsa?

yazısı səh.12-də

### Avropa Məhkəməsinin Hüseyn Abdullayev qərarına reaksiya

yazısı səh.14-də

### "Kubik"i kimlər və niyə bahalaşdırır?

yazısı səh.4-də

### Bu gün təşviqat mərhələsi bitir

yazısı səh.6-da

### Taksi xidmətində yeni fırıldaq

yazısı səh.15-də

# KREMLİN İRƏVANDAN SON TƏLƏBİ: RAZILAŞMANI YA İCRA ET, YA DA...

Putinin Bakıya yenidən zəngi və Naxçıvana nəqliyyat dəhlizinin açılmasının xüsusi vurğulanması onu göstərir ki, Rusiya Ermənistan hökumətini "özbaşına" buraxmaq fikrində deyil



yazısı səh.8-də

# Antiinhisar Agentliyi monopolistlərə qarşı

Süni qiymət artımlarının qarşısını almaq, haqsız rəqabət və idxal "monopoliyası" ilə mübarizə aparmaq qurumun vəzifə öhdəliyi olacaq

yazısı səh.4-də



### Ziya Məmmədovun işi baş prokurora göndərildi - torpaq qalmaqalı

yazısı səh.3-də



Anders Foq Rasmussen

### NATO-nun keçmiş baş katibindən anti-Azərbaycan çağırışları

yazısı səh.11-də



### Putinin Bakıya zəngini zəruri edən üç mühüm səbəb

yazısı səh.9-da



## Ərdoğanın oğlu Prezidentin qəbulunda

**Prezident İlham Əliyev avqustun 29-da Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanı qəbul edib. Bilal Ərdoğan Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb.**

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Türkiyənin dövlət başçısına çatdırmağı xahiş edib.

Dünya Etnoidman Konfederasiyasının fəaliyyətini yüksək qiymətləndirən Azərbaycan Prezidenti əldə olunmuş uğurlar münasibətilə təbriklərini çatdırıb. Dövlətimizin başçısı ölkəmizin Konfederasiyada fəal təmsil olunduğunu bildirərək, Azərbaycan idmançılarının bu qurumun yarışlarında uğurla iştirak etdiklərini deyib.

Görüşdə ölkələrimiz arasında qardaşlıq, dostluq və strateji müttəfiqlik münasibətlərinin olduğu bir daha qeyd edilib, Azərbaycanın və Türkiyənin həmişə bir-birinin yanında olduqları vurğulanıb.

## Hərbi xidmətin müddəti 6 aya endirilir?

**Məsələ ilə bağlı Bakupost.az-a danışan hərbi ekspert Azad İsazadə çağırış prosesinin özünün istər-istəməz reformalar keçirməli olduğunu bildirib. O, bu istiqamətdə müzakirələrin aparılmasına ehtiyac olduğunu deyib:**

"Məncə, ildə dörd çağırış çoxdur, yazda və payızda iki çağırışa keçməyi təklif edirəm. Sözsüz ki, ali məktəblərə qəbul olmayan gənclər əsgər getməlidir. Onlara möhlət hüququnun verilməsini düzgün hesab etmirəm. Ümumiyyətlə, proses get-gedə müqaviləli xidmət istiqamətində gedir. Hərbi peşəsindən asılı olaraq buna uyğun onların karantin müddəti təyin oluna bilər".

## Azərbaycanda çörək yeyənlərin sayı azalıb

**Ötən il Azərbaycanda adambaşına 116.6 kiloqram çörək istehlak edilib. Bu isə 2022-ci illə müqayisədə 5.9 kiloqram azdır. Dövlət Statistika Komitəsi xəbər verir ki, hesabat dövründə ölkədə adambaşına 8.2 kq bitki yağları, 3.9 kq kərə yağı, 25.3 kq şəkər, 1.3 kq çay, 5.8 kq isə duz istehlak edilib.**

Qeyd edək ki, 2023-cü ildə Azərbaycanda 1 207 152 ton çörək, 120 828 ton bitki yağı, 45 691 ton kərə yağı, 1 036 340 ton şəkər, 15 513 ton isə çay istifadə edilib.

Xatırladaq ki, bu dövrdə özünü təminetmə səviyyəsi, çörək üzrə üzrə 99.7%, bitki yağları üzrə 55.7%, kərə yağı üzrə 67.7%, şəkər üzrə 84.4%, çay üzrə 85.5%, duz üzrə isə 101% olub.

## Azərbaycanda ana və körpə ölümlərinin sayı

**Ötən il Azərbaycanda 531 körpə ölü doğulub. "Report"un əldə etdiyi məlumata görə, bu barədə "Azərbaycanda uşaqlar" adlı statistik məcmuədə bildirilib.**

Keçən il perinatal dövrdə (dölün bətndaxili həyatının 22-ci tam həftəsindən başlayır) ölənlərin sayı 1 837 döl təşkil edib. Perinatal ölümün əmsalı isə hər 1 000 nəfər diri və ölü doğulana 16,2 nəfər olub.

Bundan başqa, həmin müddətdə 7 günədək ömür sürən körpə sayı 1 306-dir.

Həmçinin ölkədə ötən il üzrə 2 min 39 bir yaşadək körpə ölümü baş verib və bunun 1317-si şəhər, 722-si isə kənd yerlərində qeydə alınıb. Beş yaşadək ölən uşaqların sayı 2 min 395 olub ki, bunun da 1329-u oğlan, 1066-sı qızdır.

Eyni zamanda ötən il Azərbaycanda 33 ana ölümü faktı qeydə alınıb. Bu göstərici hamiləlik, doğuş və zahılıq dövründə ölən anaları əhatə edib.

Məlumat üçün bildirək ki, 2022-ci ildə ana ölümlərinin sayı 18 olub.

# "Formula 1"ə görə bu yollar bağlanır



**Bakıda keçiriləcək "Formula 1" üzrə Azərbaycan Qran-prisi ilə əlaqədar logistik əməliyyatların həyata keçirilməsi məqsədilə sentyabrın 7-də, gecə saat 01:00-dan etibarən Puşkin küçəsinin Üzeyir Hacıbəyov küçəsi və Neftçilər prospekti ilə kəsişməsindən olan hissəsi nəqliyyatın hərəkəti üçün məhdudlaşacaq.**

Bu barədə Bakı Şəhər Halqası Əməliyyat Şirkətindən məlumat verilib.

Məhdudiyyət tədbirin sonunadək davam edəcək.

Nəqliyyatın İdarəetmə Planına əsasən, Bakı Şəhər Halqasının keçdiyi küçələr və trekin əhatə etdiyi ərazilər sentyabrın 9-da, gecə saat 01:00-dən etibarən nəqliyyatın hərəkəti üçün bağlı olacaq. Hərəkət 17 sentyabr, səhər saat 8:00-dan etibarən bərpa olunacaq.

Nəqliyyatın hərəkət məhdudiyyəti 3 zonada tətbiq ediləcək. Birinci zona yarış halqasının əhatə etdiyi İçərişəhər ərazisi, ikinci Azadlıq meydanı və onun yaxınlığında yerləşən digər küçələr, üçüncü zona isə BMT-nin 50 illiyi küçəsinin keçdiyi ərazidir. Yarışın keçirildiyi müddətdə qeyd olunan ərazilərə nəqliyyatın giriş-çıxışı üçün "Yaşayış yerinə giriş icazəsi" veriləcək. Qeyd olunan sənədi paylanma məntəqələrinə yaxınlaşaraq, həftənin bazar ertəsindən, cümə gününə kimi, saat 10:00-dan 17:00-dək əldə etmək mümkündür. Bunun üçün vətəndaşlar zonalar üzrə aşağıdakı müvafiq idarələrə müraciət etməlidirlər:

## Bu gün 38 dərəcə isti olacaq

**Avqustun 30-da gözlənilən hava şəraiti açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən verilən xəbərə görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Şimal-şərq küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu gecə 21-26° isti, gündüz 32-37° isti olacaq. Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-75 %, gündüz 40-45 % olacaq.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə zəif duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 20-25° isti, gündüz 33-38° isti, dağlarda gecə 13-18° isti, gündüz 21-26° isti olacaq.



## Daşkəsəndə qayınanasını baltalayanın meyiti tapıldı

**Bir müddət əvvəl Daşkəsəndə qayınanasını baltalayaraq qaçan gəlinin meyiti tapılıb. Oxu.az xəbər verir ki, Səidə Həsənovanın meyiti qayınanasını baltaladığı evdən təxminən 500 metr uzaqda, kolluq ərazidə tapılıb. Üzərində zorakılıq əlamətləri olmadığı üçün intihar etdiyi ehtimal edilir.**

S.Həsənovanın meyiti iki-üç gün əvvəl aşkar edilsə də, avqustun 28-də dəfn edilib.

Xatırladaq ki, hadisə 27 iyul tarixində baş verib. Belə ki, qayınanası Tahirə Qurbanovanı baltalayaraq hadisə yerindən qaçan gəlin S.Həsənova qadının oğlu Nofəl Qurbanovun üçüncü arvadı olub.

Hadisəyə səbəb kimi T.Qurbanovanın oğlunun evə həyat yoldaşı kimi gətirdiyi xanımı öz gəlini kimi qəbul etməməsi olub.

Məlumata görə, qayınana və gəlin tez-tez mübahisə edirlər.

Kənd sakinlərinin sözlərinə görə, əli qana batmış gəlin kəndə bu il mayın sonlarında gəlibmiş.

## Azərbaycanda nə qədər müharibə əlili var?

**Azərbaycandakı müharibə əlillərinin rəsmi sayı açıqlanıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü il iyulun 1-i vəziyyətinə ölkədəki müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin ümumi sayı 19 858 nəfərdir.**

Bunlardan 14 526 nəfər Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərdir.

Hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar əlilliyi olan şəxslərin sayı 2 819 nəfərdir.

2024-cü il iyulun 1-i vəziyyətinə Çernobıl AES-də hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar əlilliyi olan şəxslər 2 513 nəfər təşkil edib.

## Parlament seçkilərinin nəticələri nə zaman açıqlanacaq?

**Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərinin nəticələrinin nə zaman açıqlanacağı barədə məlumat verib.**

O, MSK-nın iclasında diqqətə çatdırıb ki, səsvermə günü ilkin nəticələri operativ verməyə çalışırlar.

"Bu seçkilərdə də çalışacağıq ki, ilkin nəticələri həmin gecə çatdıraq. Bu, ilkin nəticələr olacaq, yekun deyil. İki gün ərzində dairələrdən protokollar bizə veriləcək", - Məzahir Pənahov vurğulayıb.

## Xəstəxanada cibgirlik edən şəxs yaxalanıb

**Ağdaş Rayon Polis Şöbəsinə müraciət edən rayon sakini xəstəxanada olarkən cibində olan 530 manat pulunun naməlum şəxs tərəfindən oğurlandığını bildirib. Bu barədə DİN-in mətbuat xidmətinin Şəki regional qrupundan bildirilib.**

"Həyata keçirilən tədbirlərlə əməli törətməkdə şübhəli bilinən, əvvəllər də məhkum olunmuş Zavur Həsənov saxlanılıb. Faktla bağlı cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir. Z.Həsənovun digər analoji cinayətləri törətdiyi istisna edilmir. Onun əməllərindən zərərçəkən başqa vətəndaşlar varsa, bu barədə polisə müraciət edə bilərlər", - deyə qeyd olunub.

YENİ MÜSAVAT
N 155 (8528) 30 avqust 2024

# Ziya Məmmədovun işi baş prokurora göndərildi - torpaq qalmaqalı

**Sabiq nəqliyyat naziri Ziya Məmmədovun adı yenidən ölkə mediasının gündəminə gəlib. Buna səbəb Ucar rayonu, Qazıqumlaq kənd sakini Sabir Məlikəliyev ölkə rəhbərliyinə müraciətdir.**

## Qazıqumlaq kənd sakini iddia edir ki, sabiq nazir ona məxsus torpaq sahəsini anasının adına sənədləşdirərək saxtakarlıqla ələ keçirib



Dia-az.info-nun yaydığı müraciətdə S.Məlikəliyev iddia edir ki, Ziya Məmmədov ona məxsus torpaq sahəsini anasının adına sənədləşdirərək saxtakarlıqla ələ keçirib: “Ucar rayon Aqrar İslahat Komissiyasının 27 oktyabr 1998-ci il tarixli 16 saylı qərarı ilə bizim ailəyə Qazıqumlaq kəndində 1.11 hektar kənd təsərrüfatı məhsullarının istehsalı üçün torpaq sahəsi verilib. Ucar Rayon İcra Hakimiyyəti başçısının Qazıqumlaq kənd üzrə icra nümayəndəsi Mehman Məmmədov vəzifəsindən sui-istifadə edərək mənə məxsus 1.11 ha torpaq sahəsini Ziya Məmmədovun anası Şirinnaz Məhəmməd qızı Mehdiyevaya saxta sənədlərlə satıb. Ziya Məmmədov əslən Ucarın Qazqumalq kəndindəndir. Onun və qardaşlarının Qazıqumlaq kəndində hektarlarla torpaq sahələri və möhtəşəm villaları var.

Mehman Məmmədovu Qazıqumlaq kənd icra nümayəndəsi vəzifəsinə Ziya Məmmədov təyin etdirib. Ziya Məmmədovun tapşırığı əsasında bizim ailə valideynlərim və bacım 19.02.2013-cü il tarixli 189328 saylı etibarnaməni imza edərək razılıq veriblər ki, ailə üzvlərimizə məxsus olan əmlakın harada yerləşməsindən və nədən ibarət olmasından asılı olmayaraq bütün əmlaklarını idarə etməyi və onun üzərində sərəncam verməyi Qazıqumlaq kənd üzrə icra nümayəndəsinə 10 il müddətində etibar ediblər. Hansı ki, buna heç bir əsas olmayıb, çünki həmin Mehman Məmmədov bizim nə qonşumuz, nə qohumumuz, nədə tanışımız deyil. Belə olan təqdirdə nə üçün mənim savadsız valideynlərim və bacım evimizin, torpaq sahəmizin və digər əmlaklarımızın idarə edilməsini 10 illik etibarnamə ilə ona həvalə etməliyik?

Bütün bu saxtakarlıqları, cinayət əməlini Ziya Məmmədovun tapşırığı ilə Mehman Məmmədov və Ucar rayon Notariat Kontorunun rəisi əlbir olaraq ediblər.

Hansı ki, həmin 1,11 ha əkin torpaq sahəsinin Şirinnaz Mehdiyevaya satılması üçün mənim də razılığım və iştirakım olmalı idi. Ancaq mənim iştirakım və razılığım olmadan həmin 1.11 ha torpaq sahəsinin satılmasını Ucar rayon Notariat Kontoru qanunsuz olaraq həyata keçirib. Hazırda Ziya Məmmədovdan savayı bu cinayəti edənlər Mehman Məmmədov Ucar rayonu Qazıqumlaq kənd icra nümayəndəsi vəzifəsində, digər şəxs isə Ucar rayon Notariat Kontorunda işləyir. Hər iki vəzifəli şəxs Ziya Məmmədovun göstərişi ilə bu cinayətə qol qoyublar. Əgər mən torpağımın satılmasını üçün Mehman Məmmədova etibarnamə verməmişəmsə və alqı-satqıda iştirak etməmişəmsə, hansı qanuna əsasən Ucar rayon Notariat Kontoru alqı-satqı müqaviləsini təsdiq edib? Mən Rusiya Federasiyasında olmuşam, mənə məxsus torpağın satılmasını bu yaxınlarda bilmişəm. Ziya Məmmədovun tapşırığı ilə Ucar rayonunda çoxlu sayda əmlaklar sahiblərinin xəbəri, iştirakı olmadan qanunsuz yollarla onun özü və yaxınları tərəfindən ələ keçirilib".

Şikayətçi baş prokuror Kamran Əliyevə, ədliyyə naziri Fərid Əhmədova müraciət ünvanlayıb və torpağını Şirinnaz Mehdiyevanın adına sənədləşdirən Ziya Məmmədovun, icra nümayəndəsi və Notariat Kontorunun əməkdaşı barəsində qanunu və ciddi tədbirlər görməyi xahiş edib.

**“Bakı” Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov “Yeni Müsavat”a deyib ki, vətəndaş Sabir Məlikəliyev məhkəməyə müraciət etməlidir:** “Sabir Məlikəliyev onun xəbəri olmadan satılan torpaqla bağlı sənədləri də əlavə etməklə məhkəməyə iddia təqdim etməlidir. Məhkəmədə təsdiq olunsa ki, torpaq sahəsi onun xəbəri və icazəsi olmadan satılıb, bu halda onun iddiası təmin edilə bilər”.

**Natiq Ələsgərov deyib ki, Azərbaycanda belə bir praktika illərdir ki, var:** “Vəzifəli şəxslər vəzifə səlahiyyətlərindən sui-istifadə edib vətəndaşların torpaq sahələrini zəbt edir, özlərinin mal-mülk siyahısına qatırlar. Ziya Məmmədovun vətəndaşın torpağını özünün torpaqlarına qatması da bu səbəbdən təəccüblü deyil. İşə icra nümayəndəsinin qoşulması, etibarnamənin ona, onun adından isə Ziya Məmmədovun anasının adına keçirilməsi də təsadüfi deyil. Mümkündür ki, Ziya Məmmədov nazir olduğu dönəmdə kəndində torpaqlara sahiblənməsi üçün bu işi icra nümayəndəsinə tapşırıb. O da vətəndaşın xəbəri və razılığı olmadan torpağı bu şəkildə, addan-ada keçirməklə ələ keçirilməsinə nail olub”.

**Natiq Ələsgərov bildirib ki, vətəndaş məhkəməyə müraciət etdiyi zaman ona torpağın satın alınması ilə bağlı təklif də ola bilər:** “Mümkündür ki, Ziya Məmmədov vətəndaşa məsələnin məhkəmədən kənar həll yolunu təklif etsin. Bu halda vətəndaşla Ziya Məmmədovun, onun nümayəndəsinin iştirakı ilə alqı-satqı müqaviləsi bağlanacaq. Həmin müqavilədə əmlakın konkret dəyəri göstərilməli, vergisi ödənilməlidir. Vətəndaş heç bir halda torpağın real dəyərinin alqı-satqı müqaviləsində daha aşağı göstərilməsinə razı olmamalıdır”.

**Natiq Ələsgərov deyib ki, bu gün Azərbaycanda alqı-satqı müqavilələri bağlanarkən əmlakların real qiyməti vergidən yayınmaq üçün gizlədilir:** “Vətəndaşa deyilir ki, alqı-satqı müqaviləsində satdığı əmlakın real dəyərini deyil, daha aşağı qiyməti göstərilsin, bank hesabına da məhz aşağı qiymət qoyulsun. Kənarda isə qiymətə daxil olan qalan hissə verilsin. Vətəndaş belə bir razılıq verirsə, onun aldadılması riski böyüyür. Əmlakın real bazar qiymətini deyil, qəpik-quruşu hesaba köçürüb alqı-satqı müqaviləsi bağlanır, bundan sonra isə pulun qalan hissəsi min bir bəhanə ilə ödənmir. Vətəndaş şikayət etdikdə isə ona imzaladığı alqı-satqı müqaviləsində göstərilən məbləğin hesabına daxil olması haqda qəbz göstərilir. Buna görə də vətəndaşlar heç bir halda, belə qanunsuz yollara baş vurmamalı, qanunsuzluğa yol verməməlidirlər. Alqı-satqı müqaviləsi qanuni olarsa, bundan tərəflər də, dövlət də qazanmış olur”.

Qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**Musavat.com**






## Nəsiman Yaqublunun ölümü ilə bağlı istintaq gedir

**Tarixçi alim, Bakı Dövlət Universitetinin professoru, Müsavat Partiyasının 125 saylı Zəngilan-Qubadlı Seçki Dairəsindən deputatlığa namizədi Nəsiman Yaqublu avqustun 25-də seçicilərlə görüşdən Bakıya qayıdarkən yol qəzasına düşərək həyatını itirib.**

Nəsiman Yaqublunun düşdüyü yol qəzası ilə bağlı ekspertiza və müvafiq araşdırmalar gedirmi? Hansı ilkin versiyalar mövcuddur?

DİN-in regional qrupundan sorğumuza cavab olaraq bildirilib ki, hadisə ilə bağlı müvafiq ekspertizalar təyin edilib: “Ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi üzrə başlanmış cinayət işi üzrə istintaq hərəkətləri aparılır. Müvafiq ekspertizalar təyin edilib”.

“Professor Nəsiman Yaqublunun uğradığı yol qəzasının əsl səbəbinin məlum olacağına inanmaq istəyirik”. Bunu Modern.az-a açıqlamasında Müsavat Partiyası sədrinin müavini Gülağa Aslanlı bildirib. “Namizədlərimizdən biri olan professor Nəsiman Yaqublu müəmmalı şəkildə dünyasını dəyişdi. İnanmaq istəyirik ki, hüquq-mühafizə orqanları bu yol qəzasının əsl səbəbini ortaya qoya biləcəkdir”.

## Qobustan həbsxanasında ömürlük cəza çəkən 14 əcnəbi var

**Azərbaycandakı cəzaçəkmə müəssisələrində ABŞ, Banqladeş, Belarus, Çin, Əfqanıstan, Əlcəzair, Ermənistan, Gürcüstan, Hindistan, İran, İraq, Konqo, Nigeriya, Livan, Maldiv, Mərakeş, Qvineya, Misir, Özbəkistan, Pakistan, Şri-lanka, Sudan, Tacikistan, Türkiyə, Türkmənistan, Oman, Rusiya və Ukrayna vətəndaşları var.**

Bunu Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Hüquq şöbəsinin rəisi, ədliyyə polkovniki Ziya Dadaşov “Şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə saxlanılan əcnəbi və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının müdafiəsi” mövzusunda seminarda deyib.

O qeyd edib ki, həmin əcnəbilər arasında ömürlük cəza çəkən şəxslər də var: “Onların 4-ü vətəndaşlığı olmayanlar, 4-ü Rusiya, 4-ü Gürcüstan, 1-i Qazaxıstan, 1-i İran vətəndaşıdır”.

YENİ MÜSAVAT
N 155 (8528) 30 avqust 2024

# Antiinhisar Agentliyi monopolistlərə qarşı

## Süni qiymət artımlarının qarşısını almaq, haqsız rəqabət və idxal "monopoliyası" ilə mübarizə aparmaq qurumun vəzifə öhdəliyi olacaq



**Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi yaradılacaq. Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin əsasında Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin yaradılması nəzərdə tutulub.**

Fərmana əsasən, yeni yaradılan agentlik antiinhisar, haqsız rəqabət, dövlət satınalmaları, reklam, standartlaşdırma, metrologiya, texniki tənzimləmə, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya, keyfiyyətin idarə edilməsi, istehlakçıların hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sahələrində dövlət nəzarətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi fəaliyyət göstərəcək.

Agentlik antiinhisar, haqsız rəqabət, dövlət satınalmaları, reklam (açıq məkanda reklam istisna olmaqla), standartlaşdırma, metrologiya, texniki tənzimləmə, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya, keyfiyyətin idarə edilməsi, istehlakçıların hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sahələrində dövlət nəzarətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqan kimi fəaliyyət göstərəcək. Göründüyü kimi, yeni qurumun fəaliyyət istiqamətləri həm rəqabətin daha yaxından müdafiəsi, həm də antiinhisar fəaliyyəti baxımından vacib sahələrdir.

Bəs yeni yaradılan agentlik monopolistlərlə mübarizədə uğur qazana biləcəkmi?

**İqtisadçı ekspert Eldəniz Əmirov mövzu ilə bağlı "Yeni Müsavat"a bunları deyib**: "Dəfələrlə publik olaraq çıxışlarımda səsləndirdiyim fikirlərdən biri də reallaşdı. Belə ki, dəfələrlə çıxışlarımda rəqabət mühitinin qorunması və ən əsası da təkcə inhisarçılara və rəqabəti pozan sahibkarlara qarşı deyil, həm də dövlət qurumlarının rəqabəti pozan davranışlarının qarşısının alınması üçün Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin səlahiyyətlərinin artırılmasını və müstəqil qurum kimi formalaşdırılması təklif etmişdim. Çünki hazırkı səlahiyyətləri daxilində bu problemləri təkbaşına həll etməsi çətin idi. Odur ki, rəqabət mühitinin qorunması və ən əsası da təkcə inhisarçılara və rəqabəti pozan sahibkarlara qarşı deyil, həm də dövlət qurumlarının rəqabəti pozan davranışlarının qarşısının alınması üçün rəqabət orqanına daha yüksək səlahiyyətlər verilməli idi. Və budur, ölkə başçısı həmin qurumun əsasında birbaşa Prezidentə tabe olan Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi yaratdı. Sözsüz ki, bu qurumun işi o qədər də asan olmayacaq. Çünki yuxarıda qeyd etdiyim kimi, ölkədə rəqabət mühitini formalaşdırmaq və dayanıqlı saxlamaq üçün böyük güc və əzm lazım gələcəkdir. Süni qiymət artımlarının qarşısını almaq, haqsız rəqabəti və ədalətsiz bazar şərtlərini aradan qaldırmaq, idxal "monopoliyası" ilə mübarizə aparmaq, manipulyasiyaların və spekulyasiyaların qarşısını almaq və onlarla digər böyük işlər görmək məhz bu yeni agentliyin vəzifə öhdəlikləri olacaq. Bu çətin, lakin ölkə iqtisadiyyatı və zəncirin son həlqəsi olan sıravi ölkə vətəndaşı üçün son dərəcə vacib olan işində yeni agentliyə uğurlar arzulayıram".

**Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gündüz də mövzu ilə bağlı fikir bildirib**: "İqtisadiyyat Nazirliyi yanında fəaliyyət göstərən Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti Prezident yanında eyni adlı agentliyə çevrildi. Yeni Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi artıq haqsız rəqabət sektorunda, istehlakçıların hüquqlarının qorunması sahəsində söz sahibi olan, dövlət nəzarətini və tənzimləməni həyata keçirən mərkəzi icra orqanıdır. Bununla bağlı Prezidentin imzaladığı fərman çox əhəmiyyətlidir. Əlbəttə, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin müstəqil olması daha yaxşı ola bilərdi. Amma düşünürəm ki, bu qurumun Prezident yanında yaradılması indiki anda onun imkanlarını, istehlakçıların hüquqlarının qorunmasındakı rolunu, ən əsası isə inhisarçılarla "vuruşmadakı" mövqeyini xeyli gücləndirəcək. Təsəvvür edin ki, "Aztelekom"la Antiinhisar arasında uzunmüddətli və çoxsaylı məhkəmə çəkişmələrinin indiki mərhələsində hakim "Antiinhisar" sözünün qarşısında "Prezident yanında" sözü də işlətməlidir. İnanıram ki, faydası olacaq. Düşünürəm ki, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin rolunun gücləndirilməsi ilə bağlı indiki situasiyanın formalaşmasında hazırda mediada, sosial mediada, xüsusilə də Facebook və TikTok-da "internet böhranı" ilə bağlı etirazların da böyük rolu olub".

**Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov da deyib ki, bu günə kimi istehlakçıların hüquqları arxa planda olub:** "Zaman-zaman bu quruma açıq şəkildə bildirmişəm, 1995-ci ildə qəbul olunan "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanun yenilənməlidir. Mən gözləyirəm ki, dəyişiklikdən sonra adıçəkilən qurum böyük səlahiyyətlərə malik olacaqdır. Əminəm ki, onlar ictimaiyyətlə daimi əlaqədə olacaq, jurnalistlərlə mütəmadi olaraq çalışacaq, medianı gündəlik informasiyalarla təmin edəcək, şəffaf və ictimai təşkilatlarla əlbir işləyəcək, ictimai maraqlara həssas yanaşacaq, problemləri həll edəcəklər. Ümumiyyətlə, Rəqabət Məcəlləsində inhisarçı sözü ilə bağlı dəyişiklik də edilməlidir, mənası aydın deyil. Bu inhisara qaşı mübarizə aparan məcəllədirsə, anlayışın özü də verilməlidir. Ümumiyyətlə, istehlakçı hüquqları çox-çox arxada qalıb, yox dərəcəsindədir. Düşünürəm ki, yeni yaradılan və Prezidentə tabe olan bu qurum bazarın əsası olan, dövləti də, ordunu da saxlayan istehlakçı hüquqlarına diqqətlə yanaşacaq. Təsadüfi deyil ki, Azərbaycan Konstitusiyasının birinci maddəsində qeyd olunur ki, hakimiyyətin mənbəyi xalqdır. Xalqın hamısı istehlakçıdır. Yəni demokratik ölkənin biznes qurumunda bu ideya irəli gəlir ki, istehlakçı hər zaman haqlıdır. Çox təəssüf ki, bu məsələ Azərbaycanda yaxşı vəziyyətdə deyil".

**Nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı isə deyib ki, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi yanacağın keyfiyyətindən tutmuş digər neqativ hallarla bağlı insanların şikayətlərini dinləyəcək:** "Qurum ancaq cənab Prezidentə tabe olduğu üçün bu sahədə ciddi dəyişikliklərin olacağına inanıram".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**



## "Kubik"i kimlər və niyə bahalaşdırır?

**50-52 qəpiyə satılan mişar daşı indi alıcılara 0.80-1 AZN-ə təklif olunur. Buna yük avtomaşınlarının tutumuna texniki nəzarətin gücləndirilməsi, daşınma və logistika, işçi qüvvəsi, yanacaq qiymətləri və s. kimi amillər səbəb olub. Bununla yanaşı, yay fəslində tikinti işləri sürətləndiyindən mişar daşına tələbat artır. Bu da istər-istəməz qiymətə öz təsirini göstərir.**

İqtisadçı ekspert Xalid Kərimli Bakupost.az-a deyib ki, dizelin qiymətinin artması tikinti daşının maya dəyərinə çox ciddi təsir edir. Ona görə də təkcə daş yox, qum və sementin də qiymətində bahalaşma ola bilər: "Bu gün ölkədə ekoloji standartlara ciddi nəzarət olunur. Daş karxanalarını əvvəlki kimi istismar edə bilmirlər, buna ciddi nəzarət var. Daş karyerləri ilə bağlı ekoloji standartlara ciddi nəzarət olunması da qiymətə təsirsiz ötüşmür. Qeyd edim ki, mişar daşının qiymətində artım evlərin maya dəyərinin bahalaşmasına səbəb olacaq. Mənzil bazarında qiymətlər bir qədər də yüksələcək".




## Kiberdəstə həbs edildi

**Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən internet resurslarında aparılan araşdırmalar nəticəsində həyata keçirilən əməliyyat-texniki tədbirlərlə sosial şəbəkələrdə qanunsuz şəkildə fəaliyyət göstərərək fişinq yolu ilə vətəndaşların kart məlumatlarını əldə edərək xüsusilə külli miqdarda pul vəsaitləri oğurlayan daha bir dəstənin üzvləri Ərtoğrul Akdemir, Şamxal Abbasov, Qnyaz Həsənov və Sabir Hümmətzadə saxlanılıb.**

Müəyyən olunub ki, dəstə üzvləri cinayət əlaqəsinə girərək banklar və alış-veriş platformalarına oxşar saxta saytlar hazırlayaraq guya banklar tərəfindən pul uduşlu lotereyalar keçirildiyi, bahalı telefon modellərinin dəyərindən aşağı qiymətə satışa çıxarıldığı barədə həqiqətəuyğun olmayan elanlar yerləşdiriblər.

Vətəndaşlar saxta linklərə daxil olaraq özlərinə məxsus bank kartlarının məxfi və OTP təhlükəsizlik kodlarını təqdim edəndən sonra qrup üzvləri həmin şəxslərin mobil bank tətbiqlərinə daxil olaraq hesablarındakı pulları oğurlayıblar. Onların 400-ə yaxın vətəndaşın kartından pul vəsaitləri oğurlayaraq onlara ümumilikdə 500.000 manata yaxın maddi ziyan vurduqları müəyyən edilib.

Sonuncu əməliyyat zamanı saxlanılan kiberdəstənin törətdiyi qanunsuz əməllərlə bağlı məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

YENİ MÜSAVAT
N 155 (8528) 30 avqust 2024

# Sülh müqaviləsinə yenə “Qarabağ şərti” israrı

## Avropa İttifaqı, Fransa, İran və Ermənistandan ermənilərin Xankəndinə qaytarılması çağırışları eşidilir və sülh sənədinə keçmiş münaqişənin salınması təklif olunur - Bakıdan şillə kimi cavablar

**Ermənistan Qarabağ məsələsini danışıqların gündəliyinə daxil etməkdə ardıcıl olmalıdır. “Yeni Müsavat” bildirir ki, bu barədə Ermənistanın “Müqədsdəs mübarizə” hərəkatının yaydığı bəyanatda deyilir. Bəyanatda xüsusilə qeyd olunur ki, Ermənistan Qarabağ məsələsinin danışıqların gündəliyinə salınması və Qarabağ ermənilərinin pozulmuş hüquqlarının, o cümlədən müvafiq təhlükəsizlik təminatları ilə qayıtmaq hüququnun bərpasında ardıcıl olmalıdır:**

“Azərbaycanla "nəyin bahasına olursa-olsun sülhə nail olmaq" konsepsiyası qəbul oluna və tətbiq edilə bilməz. Real, sabit və uzunmüddətli sülh formulu ədalət, beynəlxalq hüquq prinsiplərinə əsaslanmalıdır. Ən mühüm humanitar problemlər - məhbusların və Qarabağın hərbi-siyasi rəhbərliyinin qaytarılması məsələləri həll olunmadan real və uzunmüddətli sülhdən danışmaq mümkün deyil".

Siyasi strateq Tiqran Köçəryan isə Paşinyan hökumətini 10 noyabr 2020-ci il Üçtərəfli Bəyanatın 8-ci bəndindən “yapışmağa” çağırıb. Köçəryanın sözlərinə görə, Rusiya xarici işlər nazirinin üçtərəfli bəyanata istinad etməsi də “artsax məsələsinin canlandırılması kontekstində nəzərdən keçirilməlidir, çünki bu bəyanatda "artsax"ın Azərbaycanın bir hissəsi kimi deyil, ayrıca vahid kimi qəbul edildiyi sonuncu sənəddir”. “Bakı və İrəvandan fərqli olaraq, Moskva "artsax" məsələsini bağlanmış hesab etmir”, - deyə o yekunlaşdırıb. Bir neçə gün əvvəl Fransanın Ermənistandakı səfiri Olivier Dekotini Qarabağı könüllü tərk etmiş ermənilərin “geri qayıtmaq hüququnu” xatırladıb. O, sosial şəbəkə hesabında yazıb: “Gəlin öz torpaqlarından qovulmuş, qayıtmaq hüququ Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən təsdiq edilmiş Dağlıq Qarabağ ermənilərini unutmayaq”.

**Avqustun 31-də vəzifəsini tərk edəcək Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar da Qarabağ ermənilərinin qaytarılmasını regionda münasibətlərin normallaşması prosesinin tərkib hissəsi kimi qiymətləndirib.** “Gözləyirəm ki, Bakı ilə Qarabağ erməniləri arasında onların öz bölgələrinə təhlükəsiz və ləyaqətlə qayıtmaları üçün birbaşa danışıqlar aparılacaq. Azərbaycanın bununla bağlı öhdəlikləri var, mənə elə gəlir ki, bunu inkar etmir. Qayıdış üçün parametrlər və şərtlər inklüziv və qarşılıqlı hörmətə əsaslanan dialoq vasitəsilə tapılmalı və razılaşdırılmalıdır”, - Klaar bildirib. Bir ay əvvəl isə İranın Ermənistandakı səfiri Mehdi Sobhani də ermənilərin könüllü qayıtması üçün şəraitin yaradılacağına ümid etdiyini bildirib və qeyd edib ki, “bunun üçün dialoq və danışıqlar lazımdır”. Qarabağda fəaliyyətinə keçən ilin 19 sentyabrında son qoyulan separatçı quldur rejimin qalıqları İrəvanda 2 sentyabrda “Qarabağın müstəqilliyinin 33-cü ildönümü”nü keçirmək istəyirlər. Sentyabrın 19-da Vaşinqtonda anti-Azərbaycan tədbiri keçirəcəklər. ABŞ Konqresi qondarma “artsax”la bağlı ermənilərlə birlikdə tədbir keçirəcək. Məlumatda qeyd edilir ki, Konqres üzvləri, icma fəalları və koalisiya tərəfdaşları sentyabrın 19-da Kapitoli təpəsində toplanacaqlar.

Göründüyü kimi, həm Aİ nümayəndəsi, həm Tehranın səfiri, həm fransız diplomat, həm də erməni strateqləri ermənilərin Qarabağa qayıdışından danışırlar. Azərbaycan isə mövqeyini bununla əsaslandırır ki, onlar vətəndaşlığı qəbul edərək Xankəndidə, Ağdərədə yaşaya bilərlər, paralel olaraq da qərbi azərbaycanlıların öz torpaqlarına qayıdışı Ermənistan tərəfindən təmin olunmalıdır. Paşinyan hökuməti Qarabağdan gedənlərə qaçqın statusu verib. Halbuki həmin ermənilər Ermənistan pasportu daşıyırlar, necə qaçqın ola bilərlər? İndi isə səslənən çağırışlar, Qarabağ məsələsinin sülh sənədinə daxil edilməsi tələbləri tamamilə absurddur. Sülh mətnində Azərbaycan və Ermənistan bir-birinin ərazi bütövlüyünü tanıdığını təsdiq edir və Qarabağ da həmin suverenliyə daxildir, bunu ayrıca göstərmək, yaxud ermənilərin qayıdışını gündəliyə salmaq əsaslı deyil.

**“Yeni Müsavat”a danışan Vətəndaş Həmrəyliyi Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Samir Əsədlinin fikrincə, Qarabağ mövzusu keçmişdir və sülh gündəliyində olması ermənilərin arzusu kimi qalacaq:** “Bizim tələblərimiz aydındır - Minsk formatı de-yure ləğv edilsin, Ermənistan qanunvericilik aktlarını dəyişsin və ərazi iddialarını müstəqillik deklorasiyasından çıxarsın. Hətta nəqliyyat dəhlizlərinin açılmasını sülh mətnindən çıxardıq ki, sonraya qalsın. Yəni təki sülh müqaviləsi bağlansın. İndi hansı haqla bizdən bunu tələb edə bilərlər ki, Qarabağ məsələsi bir punkt olaraq sülh mətnində göstərilsin?!”

**O ki qaldı ermənilərin qayıdışına, S.Əsədli bunun sadə mexanizmi olduğunu düşünür:** “Əvvəla, hadisələrin isti vaxtlarında Yevlaxda, Xocalıda görüşlər oldu, Prezident Administrasiyası reinteqrasiya proqramını açıqladı, orada erməni əhalisinə subsidiyalar verilməsi, bəzi güzəştlər nəzərdə tutulurdu, amma istəmədilər, çıxıb getdilər. İndi heç qayıtmaq da istəmirlər. Artıq "boz zona"nın ləğvinin bir ili yaxınlaşır, biz Qarabağdan köçən ermənilərdən o çağırışları eşitməmişik ki, geri dönmək istəyirlər. Əksinə, xaricdən “qaçqınlara dəstək” adı ilə alınan yardımlardan istifadə edirlər. Ona görə erməni cəmiyyətində belə bir sosial sifariş yoxdur. Üstəlik də qorxurlar. Çünki aralarında separatizmə dəstək verənlər, cinayət törədənlər var. Fikirləşirlər ki, onlara azərbaycanlılar rəhbərlik edəcək və bu da onlarda psixoloji narahatlıq yaradır".

**VHP rəsmisi hesab edir ki, onların rəhbərləri həbsdədir və əgər bölgədə rus hərbçiləri qalsaydı, yenə də başlarının üstündə Araik kimilər olsaydı, qalardılar:** “Onlar bizimlə birgə yaşamaq istəmirlər. Ona görə ayrı-ayrı ölkələrdən verilən bəyanatların əhəmiyyəti yoxdur. Onsuz da qayıtmayacaqlar. Ən əsası isə onlar yalan danışırlar, yeni Qarabağda yaşamış olsalar da, Ermənistan vətəndaşlarıdırlar. Çünki qondarma rejimin sənədi ilə Rusiyaya və yaxud başqa ölkələrə gedə bilməzdilər. O zaman bu 30 ildə hansı sənədlə xaricə səfər edirdilər? Təbii ki, Ermənistan vətəndaşı kimi. Bu mənada nə Qarabağ sülh sənədində ola bilməz, nə də ermənilər qayıtmazlar. Əgər Xankəndideki evinə hansısa Vazgen geri dönmək istəyirsə, Ermənistan pasportunu cırıb tullamalı və Laçın sərhəd-keçid məntəqəsindən ərazimizə daxil olub vətəndaşlıq üçün ASAN Xidmətə müraciət etməlidir".



**Siyasi Hüquqların Müdafiə Mərkəzinin rəhbəri Xəzər Teyyublu isə səslənən fikirlərin heç birinin beynəlxalq hüquqa uyğun olmadığını bildirir. Onun sözlərinə görə, ermənilərin hiyləsi Qarabağ məsələsini yenidən gündəmə gətirməkdir:** “İkitərəfli rəsmi danışıqlarda masaya bu mövzu gətirilmir. Bakı və İrəvan sülh sənədini, ərazi bütövlüyünün tanınmasını, nəqliyyat kommunikasiyalarının açılmasını müzakirə edirlər, Qarabağ barədə Paşinyan heç nə demir və təsdiq edir ki, Azərbaycan ərazisidir. O baxımdan erməni analitiklərin fikirləri utopiyadır və Bakı əsla buna razı olmaz”. **Hüquq müdafiəçisi ermənilərin qayıdışı məsələsinin aktuallığını itirdiyini düşünür:** “Bu təklifi səsləndirənlərin məqsədi diqqəti yenidən Qarabağa yönəltməkdir. Onlar istəyirlər ki, ermənilər qayıtsın, Bakı qarşısında hansısa tələblər və öhdəliklər qoysunlar, iki gündən bir gah Avropa İttifaqının, gah digər Qərb təsisatlarının nümayəndələri regiona səfər etsinlər, BMT missiya yollasın, hansısa fransız hüquq müdafiəçiləri gəlib onların şəraiti ilə maraqlansın... Bu zaman da nəzərlər Qarabağa dikilsin və Azərbaycana təzyiq imkanı yaransın. Odur ki, bu məsələ bağlanıb və heç bir perspektivi yoxdur”.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**



## Diplomatlara “İrəvana qayıdın” əmri

**Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin siyasəti ilə razılaşmayan xaricdəki diplomatik missiya rəhbərlərini istefaya çağırıb. Bu barədə Ermənistanın “Hraparak” qəzetində dərc olunan məqalədə yazılıb.**

Bildirilib ki, bu barədə o, ölkənin xaricdəki səfirlərinin İrəvanda keçirilən iki günlük toplantısında deyib.

“Hraparak” hökumətdəki mənbələrdən alınan informasiyaya əsasən bildirir ki, qarşıdakı günlərdə bir sıra səfirlər ya Paşinyanın sərəncamı, ya da öz ərizəsinə uyğun olaraq geri çağırılacaq.

**Siyasi şərhçi Kənan Novruzovun** fikrincə, bu məlumatın nə qədər dəqiq olduğu hələ məlum deyil: “Hərçənd bu ehtimalın doğru olmaq ehtimalı da var. Məsələ burasındadır ki, Ermənistanda daxili siyasi vəziyyətdə gərginlik hökm sürür. Bunun əsas səbəbi rəsmi İrəvanın xarici siyasət kursu ilə bağlıdır. Belə ki, bu gün Ermənistandakı Nikol Paşinyan hakimiyyəti faktiki olaraq Rusiya ilə Qərb arasında qalıb. Bu da Ermənistan müxalifətinin narazılığına səbəb olur.

Üstəgəl, rəsmi İrəvan artıq başa düşür ki, regional əməkdaşlıq mühitinin təmin olunmasının alternativi yoxdur. Bunu baş nazir dəfələrlə birbaşa və ya dolayı yolla etiraf edib.

Amma Ermənistan hakimiyyəti sözdə dediyini əməldə icra etmək üçün lazımi siyasi iradəyə malik deyil. Bunun iki əsas səbəbi var: Birincisi, rəsmi İrəvan xeyli dərəcədə ikinci tərəflərdən, o cümlədən Vaşinqton və Parisdən asılıdır. Qərb Ermənistanı öz təsiri altına salıb. İndi də Ermənistanın xarici siyasət kursunu müəyyənləşdirir. İkincisi, Ermənistan siyasi elitasındakı daxili ziddiyyətlə bağlıdır. Müxalifət zaman-zaman iqtidarın “əl-qolunu bağlamağa” çalışır. Beləliklə, Ermənistan hakimiyyəti çətin vəziyyətə düşür.

Bu xüsusda xaricdəki diplomatlar mühüm fiqurdurlar. Çünki hər bir dövlət kimi Ermənistan da özünün xarici siyasətini xeyli dərəcədə başqa ölkələrdəki diplomatları vasitəsilə həyata keçirir.

Mümkündür ki, müxtəlif ölkələrdəki səfirlər Ermənistan hakimiyyətinin etimadını doğrultmur. Bu baxımdan xüsusilə Rusiyadakı səfiri göstərmək olar. Əgər iddia özünü doğruldarsa, onda istefaya göndəriləcək diplomatlardan birinin Ermənistanın Rusiyadakı səfirinin olması mümkündür".

YENİ MÜSAVAT
N 155 (8528) 30 avqust 2024

**Bu gün-30 avqust seçki ilə bağlı təbliğat-təşviqat kampaniyasının sonuncu günüdür. Sabah - 31 avqust "sükut günü" olduğu üçün namizədlərin təbliğat-təşviqat kampaniyası aparıla bilməz.**

Ölkədəki bütün məntəqə seçki komissiyaları seçkilərə tam hazır vəziyyətdədir.

Deputatlığa 1052 nəfərin namizədliyi qeydə alınsa da 61 nəfər sonradan namizədlikdən geri çəkilib. Bu səbəbdən parlament seçkiləri ilə bağlı çap olunan bülletenlərdə 991 namizədin adı qeyd edilib. 125 saylı Zəngilan seçki dairəsindən deputatlığa namizəd Nəsiman Yaqublu bir neçə gün öncə nəqliyyat qəzası nəticəsində həlak olduğu üçün hazırkı vəziyyətə görə seçkidə 990 namizəd mübarizə aparır.

Sentyabrın 1-də Milli Məclisə keçiriləcək seçkilərdə ilk dəfə səsvermə hüququ yaranan şəxslərin sayı 51 min 141 nəfərdir.

Seçki ekspertlərinin rəyinə görə, başa çatmaqda olan seçki kampaniyası Azərbaycanda indiyə qədər keçirilən parlament seçkiləri kampaniyaları sırasında ən sakit, gərginliklər yaşanmayan seçki kampaniyası oldu.

Namizədlərin sırasında aktiv, parlaq təbliğat-təşviqat kampaniyası aparanlar olsa da onların sayı elə də çox deyil. Namizədliyi ləğv edilən isə olmayıb.

Növbədənkənar seçkilərlə əlaqədar 604 nəfər beynəlxalq müşahidəçi qeydiyyatdan keçib. Beynəlxalq müşahidəçilərin 227 nəfəri ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun müşahidəçiləridir.

111 min 200-ə yaxın yerli müşahidəçi qeydə alınıb. 25 siyasi partiyanın 65 minə yaxın müşahidəçisi qeydiyyatdan keçib.

# Naxçıvan siyasətində yeni partiya

## Milli Məclisə seçkilərin təşviqat mərhələsinin son günüdür



Onu qeyd etmək lazımdır ki, xüsusilə Naxçıvan Ali Məclisinə seçkilər fərqli siyasi ortamda keçməkdədir. Maraqlısı odur ki, indiyə qədər Naxçıvan Ali Məclisində siyasi partiyalar olaraq iki partiya - YAP və AXCP təmsil edilmişdir. Bu dəfə isə seçkilərə 3 siyasi partiyanın namizədləri qatılır. YAP, AG Partiya və AMİP. Lakin burada onu vurğulamaq lazımdır ki, AG Partiyanın Naxçıvan Ali Məclisinə 40 saylı Saltaq seçki dairəsindən namizədi Mətləb Aslanov məhz partiyasının rəsmi siyasi təşəbbüsü ilə qatılır.

AG Partiyanın Naxçıvanda siyasi proseslərdə iştirakı, ümumiyyətlə, muxtar respublikası üçün bir yenilikdir. AG Partiyanın bəyan etdiyi əsaslar ondan ibarətdir ki, müxalifət partiyalarının məclisdə təmsil edilməsi zəruridir. Ancaq AG Partiyanın mövqeyinə görə müxalifət milli xarakterli olmalıdır, özünün sosial və fəaliyyət əsasını xalqa dayandırmalıdır. Bu baxımdan, bir çox amilləri cəmləşdirərək belə hesab etmək olar ki, üzvlərinin sayının çoxluğuna, strukturunun demək olar ki, hər bölgədə mövcud olmasına, məhz yerli resurslara bağlı olduğuna görə Naxçıvan Ali Məclisinə qatılacağı təqdirdə AG Partiya yeni siyasi mühitin formalaşmasına öz töhfəsini verə bilər.

**AG Partiyanın sədri Tural Abbaslı "Yeni Müsavat"a bildirdi ki, Naxçıvan Ali Məclisinin tarixində ilk dəfədir partiya tərəfindən namizəd irəli sürülüb:** "Hətta Yeni Azərbaycan Partiyası da rəsmi namizəd irəli sürməyib. YAP-ın üzvləri öz təşəbbüsləri ilə namizədliklərini irəli sürüblər. AĞ Partiya isə ilkə imza ataraq partiya tərəfindən namizəd irəli sürüb. Bu, bir yeni addımdır və biz çox istəyirik ki, Naxçıvan Muxtar Respublikasında yeni siyasi mühitin formalaşmasına öz müsbət təsirlərini göstərsin, bir yaxşı presedentin əsası olsun. Biz muxtar respublikanın siyasi həyatında rol almaq üçün namizədimizlə orada seçkilərə qatıldıq. İnşallah, gələcək seçkilərdə daha çox sayda namizədlə iştirak edəcəyik. Əgər seçkilər demokratik keçirilərsə, namizədimiz Mətləb Aslanovun çox rahatlıqla Ali Məclisə üzv seçiləcəyinə əminik. Belə olacaqsa, AĞ Partiya Naxçıvan Ali Məclisində təmsil olunacaq. Bu, Azərbaycan üçün də bir yenilik olacaq".

**Siyasi ekspert Aydın Quliyev isə bildirdi ki, Naxçıvanda hakim Yeni Azərbaycan Partiyası ilə bərabər başqa siyasi partiyaların da seçkiyə qatılması, əlbəttə, əvvəlki dövrlərlə müqayisədə nisbətən fərqli bir əlamətdir:** "Əvvəllər biz adətən Naxçıvan Ali Məclisinə seçkilərdə yalnız Yeni Azərbaycan Partiyasının üzvlərinin seçkiyə qatılmasının şahidi olardıq. Ancaq bu gün bildiyim qədər orada Yeni Azərbaycan Partiyasının üzvləri ilə yanaşı, Milli İstiqlal Partiyasının və AG Partiyanın da nümayəndələri namizəd kimi seçkidə iştirak edirlər. Seçkiyə qatılanların hər birinə uğur arzulamaq bizə qalan işdir. Lakin seçkidə Azərbaycan siyasi mühitində siyasi partiyaların perspektivi ilə bağlı dəqiq proqnoz vermək olduqca çətindir. Bütün hallarda mənim üçün çox çətindir. Ona görə ki, siyasi partiyaların siyasi mühitdə, seçkidə nə kimi mövqe tuta biləcəkləri onların təkcə özünün resurslarından asılı olmayan məsələdir. Burada siyasi partiyaların resurslarından başqa həlledici rol oynayan amillər var. Buna görə də siyasi partiyaların istər seçkidə iştirak etsin, istər etməsin, onların perspektivi ilə bağlı dəqiq proqnoz vermək çətin olur. Əgər hər şey siyasi partiyaların resurslarından asılı olsaydı, onda proqnozlaşdırmaq olardı".

**Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Müxalifətin arzusu - parlamentdə fraksiya yaratmaq

## Seçkilərdə ən çox namizədi olan Müsavatdır

**Sentyabrın 1-də Azərbaycanda parlament seçkiləri keçiriləcək. Seçkilərdə demək olar ki, əksər siyasi partiyalar namizədləri ilə iştirak edir. Lakin müxalifət partiyalarının namizəd sayı ümumilikdə götürdükdə çox azdır. Ən çox namizəd irəli sürən (25 nəfər) müxalifət təşkilatı Müsavat Partiyasıdır.**

Yeri gəlmişkən, bütün müxalifət namizədlərinin hamısı deputat seçilsə belə, onların Milli Məclisdəki məsələlərə təsiretmə imkanları o qədər də böyük olmaya bilər.

Maraqlıdır, müxalif siyasi partiyalar nə üçün bu qədər az namizədlə seçkilərə qatılıb?

Modern.az məsələ ilə bağlı siyasi partiyalarla əlaqə saxlayıb.

**Müsavat Partiyası sədrinin müavini Gülağa Aslanlı** bildirib ki, onlar seçicilərin seçkiyə olan inamını nəzərə alaraq namizədlik barədə qərar qəbul ediblər: "Nəticədə 34 nəfər namizədimiz oldu ki, onlardan da 25-i qeydə alınıb. 9 nəfərin müxtəlif bəhanələrlə seçkidə iştirakının qarşısı alındı. Namizədlərimizdən biri - professor Nəsiman Yaqublu müəmmalı şəkildə dünyasını dəyişdi".

Gülağa Aslanlı vurğulayıb ki, parlamentin işini nizama salmaq üçün bütün millət vəkillərinin Müsavat Partiyasının üzvü olması yox, əksəriyyətinin Müsavat ideologiyasına sahib olması vacibdir.

**REAL Partiyasının icraçı katibi Natiq Cəfərli maddi resursları çatmadığı üçün az namizədlə seçkidə iştirak etməyi məqbul saydıqlarını söyləyib:** "REAL Partiyası ötən ilin dekabrında Seçki Qərargahı yaradıb. Biz partiya daxilində kimin namizəd olmaq istədiyini öyrənmək üçün seçki təşkil etdik. 80-dən çox şəxs namizəd olmaq istədi. Siyasi komitə və İdarə Heyəti olaraq onların hamısı ilə bir-bir görüşdük. İki strategiyadan birini seçməliydik. Ölkənin müxtəlif yerlərində 80-ə yaxın namizədlə iştirak edib resursları qeyri-rasional istifadə etməliydik, yaxud da namizədlər arasında qalib gəlməyə yaxın olanları seçib resursları bir istiqamətə cəmləməliydik. Bilirsiniz ki, istənilən ölkədə, o cümlədən Azərbaycanda seçki prosesi çoxlu maddi resurs tələb edir. REAL Partiyasının isə o qədər böyük maddi resursu yoxdur. Hər namizədin seçki kampanyasına əvvəldən axıra qədər təxminən 7-10 min vəsait tələb olunur. İnsan resursları da kifayət qədər vacibdir. İrəli sürdüyümüz 13 namizəddən 12-si qeydiyyatdan keçib. Hər birinin ortalama 50 müşahidəçisi var. Bu isə ümumilikdə 600 müşahidəçi deməkdir. Onlara daha yaxşı müşahidəçi olması üçün treninqlər keçirilməli, müxtəlif işlər görülməlidir, buna da vəsait lazımdır. Biz düşündük ki, 12 güclü namizədlə çıxış edək, namizədlərimizin qalibiyyətinə nail olaq. Parlamentdə fraksiya yaratmaq indiki dönəmdə daha uğurlu strateji xətdir".

**N.Cəfərli söyləyib ki, onsuz da Azərbaycanda hökumət parlament seçkisi ilə qurulmur:** "Hökumət parlamentdən çıxmır. Ona görə parlamentdə güclü səsə, mövqeyə malik olmaqla hökumətin fəaliyyətinə təsir etmək imkanları sahiblənmək müsbət haldır. REAL Partiyası bu yolla getməyə üstünlük verdi. 12 namizədimizin hamısı qalibiyyətə ən layiq namizədlərdir. Hər biri öz dairəsində ciddi mübarizə aparır".

YENİ MÜSAVAT
N 155 (8528) 30 avqust 2024

# Azərbaycanı Strasburqla vidalaşmağa təhrik edirlər

## AŞ PA-nın davam edən əsassız tələbləri Bakıya alternativ seçim imkanı qoymur

**AŞ PA-da Almaniya nümayəndə heyətinin sədri Frank Şvabenin rəsmi Bakının bu qurumun Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin məhdudlaşdırılmasının lehinə səs verən üzvlərinin ölkəyə girişinin qadağan edilməsi haqqında qərarını tənqid etməsi Strasburq-Bakı münasibətlərini daha da gərginləşdirib.**

Avropa Şurası Parlament Assambleyasının Prezidenti Teodoros Rusopulos da Azərbaycan XİN-in AŞ PA-nın müəyyən üzvlərinin Azərbaycanda arzuolunmaz şəxs hesab ediləcəyinə dair bəyanatına reaksiya verib: "Bu, Azərbaycanın Avropa Şurasındakı mövqeyini yalnız çətinləşdirəcək təəssüf doğuran siqnaldır. Üzv ölkələr demokratiya standartlarına hörmət edəcəklərinə dair öhdəlik götürüblər. Öz vicdanına uyğun səs verənlərin "qara siyahı"ya salınması yalnız əks-nəticə verə bilər".




Yada salaq ki, Prezident İlham Əliyev Azərbaycan nümayəndə heyətinin AŞ PA-da hüquqlarının bərpa olunmayacağı təqdirdə, Azərbaycanın Avropa Şurası və Avropa İnsan Haqları Məhkəməsində iştirakı məsələsinə yenidən baxılacağını bildirib. Bu o deməkdir ki, Strasburqda məsələ müsbət həll olunmasa, Azərbaycan Avropa Şurasının digər strukturlarını da tərk edəcək.

Bəzi ekspertlərə görə isə Azərbaycanın Avropa Şurasından çıxması Ermənistanın və Avropadakı erməni lobbisinin maraqlarına cavab verə bilər. Belə ki, Azərbaycanın iştirak etmədiyi AŞ PA-da Ermənistan və erməni lobbisi Azərbaycan əleyhinə qətnamələr qəbul edilməsinə çalışacaq. Azərbaycanın Avropa Şurasından çıxmasından Rusiyanın da faydalanacağını iddia edənlər var. Sirr deyil ki, Kremlin əsas hədəfi bölgə ölkələrinin Avropa ilə deyil, Rusiya ilə yaxınlığına nail olmaqdır. Halbuki Azərbaycan iqtisadi səbəbdən də Avropadan uzaqlaşa bilməz. Azərbaycanın əsas ticarət tərəfdaşları Avropa İttifaqı ölkələridir. Amma belə görünür ki, AŞ PA-nın davam edən əsassız tələbləri Bakıya alternativ seçim imkanı qoymur.

**VI Çağırış Milli Məclisin deputatı Bəhruz Məhərrəmov "Yeni Müsavat"a açıqlamasında AŞ PA-nın Qərbin təcavüzkar niyyətlərinin alətinə çevrildiyini qeyd etdi:** "Azərbaycanın Avropa Şurası ilə münasibətlərində müşahidə olunan hazırkı gərgin durum Bakıdan qaynaqlanmır və birmənalı şəkildə AŞ PA-nın Qərbin təcavüzkar niyyətlərinin alətinə çevrildiyinin göstəricisidir. Sirr deyil ki, Avropa Şurası Parlament Assambleyası Azərbaycanın bu təşkilatdakı nümayəndə heyətinin səlahiyyətlərinin məhdudlaşdırılmasına dair qərarı verərkən bu mövqeyini əsaslandıracaq izah ortaya qoya bilməmişdi. Görünən odur ki, Avropa Şurası Parlament Assambleyası özünün təsis ideallarından açıq formada kənarlaşaraq, insan haqları və demokratiyanı ayrı-ayrı dövlətlər üzərində təzyiq mexanizminə çevirib bəzi üzv dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının suveren haqları üzərində nəzarət imkanları əldə etməyə çalışır. Lakin tam siyasi və iqtisadi cəhətdən müstəqil dövlət kimi özünü təsdiq etmiş, hərbi-siyasi qələbələri ilə regionun əsas güc mərkəzinə çevrilmiş Azərbaycanın bu kimi çirkin konfiqurasiyalarla təsir altına salınması, təbii ki, mümkün deyil".

**Deputat AŞ PA üzvlərinin ölkəyə girişinin qadağan edilməsi ilə bağlı qərarın da tam yerində verildiyini söylədi**: "Prezident İlham Əliyev özü də dəfələrlə bəyan edib ki, heç kəs bizim iradəmizə təsir edə bilməz. Belə bir məqamda, heç bir əsaslandırma aparmadan, yaxud əsaslandırmaları qondarma səbəblər üzərində qurulan qərara münasibətdə Azərbaycanın adekvat davranışları, daha konkret desək, nümayəndə heyətinin səlahiyyətlərinin məhdudlaşdırılmasının lehinə səs verən AŞ PA üzvlərinin ölkəyə girişinin qadağan edilməsi yerində və səbatlı addım hesab olunmalıdır. Öz ərazisinə kimi buraxıb-buraxmamaq Azərbaycan Respublikasının beynəlxalq hüquqla tanınan suveren haqqıdır və bu gün artıq qərəzliliyi və qeyri-obyektiv davranışları heç kimdə şübhə doğurmayan bir təsisat olan AŞ PA-nın ayrı-ayrı rəsmilərinin, o cümlədən Parlament Assambleyasının prezidentinin bu məsələni şərh etməsi, yaxud pisləməsi beynəlxalq hüququn prinsiplərinə zidd olaraq Azərbaycanın daxili işlərinə növbəti dəfə qarışmaq cəhdidir. AŞ PA prezidenti Rusopulosun isterik münasibəti təşkilatın özünün dilemma qarşısında qaldığını göstərir. Aydındır ki, Azərbaycanın Avropa ilə münasibətləri Avropa Şurası, yaxud Avropa Şurası Parlament Assambleyası üzərindən həyata keçirilmir. Azərbaycan Avropanın 10-a yaxın dövləti ilə strateji tərəfdaşlıq müqaviləsinə malikdir və Avropanın, o cümlədən Avropa Şurasına üzv olan bir çox dövlətlərin enerji təhlükəsizliyində, dolayısı ilə milli təhlükəsizliyində həlledici söz sahibidir. Bu mənada, Avropa Şurası Parlament Assambleyası Prezidentinin iddia etdiyi çətinləşmə Azərbaycanın yox, əslində Avropa Şurasının özünün vəziyyətinin ifadəsidir. Şvabe kimi muzd hesabına fəaliyyət göstərən, sifarişli çıxışlar edən və ləyaqətini satmış siyasətçilərin dili ilə danışan bir təsisat yaxşı olar ki, ilk növbədə problemi özündə axtarsın. Əlbəttə, Azərbaycan beynəlxalq hüququn prinsiplərinə, o cümlədən BMT Nizamnaməsinə sadiqdir və bizim üçün dialoq mühiti alternativsizdir. Bu mənada, biz Avropa Şurası Parlament Assambleyası ilə münasibətlərimizin kəsilməsini arzulayan tərəf deyilik, lakin bizim üçün suveren haqlarımız, milli maraq və mənafelərimiz istənilən beynəlxalq təsisatla münasibətlərdən daha önəmlidir".

**Ədalət, Hüquq və Demokratiya Partiyası sədrinin müavini, politoloq Elçin Mirzəbəyli çox sərt danışdı**: "Əgər Avropa Şurası Parlament Assambleyasının Prezidenti Teodoros Rusopulos hesab edirsə ki, Azərbaycana qarşı açıq qərəz nümayiş etdirən, qarayaxma kampaniyası aparan, sifariş icra edən kəslər "öz vicdanlarına uyğun səs veriblər", bu o anlama gəlir ki, AŞ PA müəyyən istisnalar olmaqla, AŞVA-ya - Avropa Şurası Vicdansızlar Assambleyasına çevrilib və belə olduğu təqdirdə ədalət prinsiplərini, milli ləyaqət hissini hər şeydən üstün tutan ölkəmizin bu təsisatda qalmağına heç bir ehtiyac yoxdur. Maraqlıdır ki, AŞ PA başbilənləri öz səhvlərindən nəticə çıxarmaq əvəzinə, heç bir effektiv nəticə verməyəcək "yumşaq təhdid" yolunu seçiblər. Bu isə AŞ PA-da, 2004-cü ildən başlayaraq, özünü daha qabarıq büruzə verən çatların daha da dərinləşməsi deməkdir.

Azərbaycan Frank Şvabe kimi marionet siyasətçilərin əli ilə oynanan qaydasız oyunların mahiyyətini çox yaxşı başa düşür. Avropa Şurasında rol dəyişdirən qrupların və onların sahiblərinin niyyətlərini dərindən anlayır və bundan nəticə çıxarmağı bacarır. Hazırda Avropa Şurasının, Azərbaycan da daxil olmaqla, 47 üzvü var. BMT-nin isə 193 üzvü var. Deməli, BMT üzvü olan ölkələrin 152-si Avropa Şurasının üzvü deyil. Onların arasında kifayət qədər inkişaf etmiş ölkələr var. Deməli, Avropa Şurası və onun PA-sı olmadan da yaşamaq mümkündür.

Məsələnin Rusiya kontekstindən birbaşa şərh və təqdim edilməsini doğru saymıram. Azərbaycanın Avropa Şurasına üzvlüyü Rusiyanın maraqlarını təhdid etmədiyi kimi, ölkəmizin bu təsisatı tərk etməsi də Moskvaya böyük anlamda heç nə vermir. Geosiyasi proseslərin sürətli inkişafı isə onu deməyə əsas verir ki, indi hər bir ölkə milli maraqlarının və təhlükəsizliyinin təmin olunduğu, daha aydın və birmənalı mahiyyət daşıyan platformalar üzərindən həyata keçirilən real və bərabərhüquqlu əməkdaşlığa üstünlük verirlər. Bu qəbildən olan təhdidlər qarşısında ölkəmizin geriyə çəkilməsi mümkün deyil. Təhdid dili qarşısında geri çəkilmək bu amillə barışmaq anlamına gəlir".

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"

## ATƏT PA Bakıya 60 müşahidəçi göndərir



**ATƏT PA-nın 60-a yaxın müşahidəçisi sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərini müşahidə etmək üçün Azərbaycana gələcək. Bu missiya 1995-ci ildən etibarən PA-nın ölkədə seçkiləri müşahidə edən on birinci missiyası olacaq, bu barədə təşkilatın saytında dərc edilmiş məlumatda deyilir.**

ATƏT Parlament Assambleyasında İrlandiya nümayəndə heyətinin sədri Maykl Krid Xüsusi Koordinator və ATƏT-in qısamüddətli müşahidəçilər missiyasının rəhbəri funksiyalarını yerinə yetirəcək, Demokratiya, insan hüquqları və humanitar məsələlər üzrə Ümumi Komitənin sədri Lyusi Potuçkova (Çexiya) isə ATƏT PA müşahidəçilərinin nümayəndə heyətinə başçılıq edəcək.

Müşahidəçilər üçün seçki administrasiyasının, vətəndaş cəmiyyətinin, namizədlərin, partiya nümayəndələrinin və ekspertlərin iştirakı ilə seçkilər ərəfəsində vəziyyətə dair hərtərəfli brifinq təşkil ediləcək, daha sonra müşahidəçilər seçkiləri müşahidə etmək üçün Azərbaycanın bir sıra bölgələrinə səfər edəcəklər.

"Bu, növbədənkənar parlament seçkiləri, xüsusən cəmi altı ay əvvəl keçirilmiş növbədənkənar prezident seçkisini və BMT-nin Azərbaycanda keçiriləcək böyük beynəlxalq tədbirini nəzərə alaraq, şübhəsiz, böyük əhəmiyyət kəsb edir", - deyə xüsusi koordinator M.Krid bildirib. "Bizim müşahidəçi komandamız qərəzsiz və hərtərəfli qiymət verməyə çalışır, yeganə məqsədimiz demokratik standartlara və dəyərlərə riayət olunmasını dəstəkləmək, həmçinin Azərbaycan xalqı üçün ədalətli və şəffaf seçki prosesini təmin etməkdir".

"Qarşıda duran növbədənkənar parlament seçkilərində ATƏT PA-nın beynəlxalq müşahidəçilərindən ibarət nümayəndə heyətinə başçılıq etmək mənim üçün böyük şərəfdir. Parlamentarilərin iştirakı beynəlxalq parlamentari həmkarlarımın qarşıda duran mühüm seçki prosesinin qiymətləndirilməsi üzrə səylərində fəal iştirakına dəlalət edir", - deyə ATƏT PA-nın nümayəndə heyətinin sədri L.Potuçkova bildirib. "Biz demokratik prinsiplərə uyğunluq, azad səsvermə prosedurlarına riayət olunması, kampaniya aparılması üçün ədalətli şərtlərin təmin edilməsi, KİV-ə çıxış və nəticələrin lazımi şəkildə əks olunması nöqteyi-nəzərdən seçki prosesinin qiymətləndirilməsi çərçivəsində ATƏT DTİHB-lə sıx əməkdaşlıq edirik".

Seçkilər ATƏT-in 1990-cı il Kopenhagen sənədində yer alan demokratik öhdəliklərə uyğunluğu nöqteyi-nəzərdən qiymətləndiriləcək.

İlkin nəticələr və seçkilərin yekunlarına dair rəylər sentyabrın 2-də Bakıda keçiriləcək mətbuat konfransında təqdim ediləcək.

Bir müddət əvvəl ATƏT DTİHB-nin monitorinq missiyasının rəhbəri Ditmir Buşati bildirib ki, seçkiləri bu qurumun 28 uzunmüddətli və 280 qısamüddətli müşahidəçisi müşahidə edəcək.

YENİ MÜSAVAT
N 155 (8528) 30 avqust 2024



# Dirijorluğa marağın azalmasının səbəbləri

Zamin HACI
zaminhaci@gmail.com

"Hər ağlar gözlüyə aşiq deməzlər"
(ata sözü)

**Ölkəmiz parlament seçkisinə hazırlaşır. Bir-iki günə bu hadisə olmalıdır. Seçkinin nə qədər ədalətli olmasına çoxlu əlamətlər yaranmışdır. Məsələn, elə bugünlərdə planetlərin paradıdır. Sabah tezdəndən ölkəmizin müxtəlif guşələrindən açıq gözlə bu paradı izləmək mümkündür. Məncə, göydə ulduzların sıraya düzülməsi seçici siyahılarında adlarımızın düzülüşünə çox oxşayır.**

Yaxud yol polisi stajlı bir milli dələduzumuzun avtomobilini saxlamış, sonra onu 30 sutka həbsə basmışlar. Çünki dələduz bəy 10 min manata yaxın yol hərəkəti cərimısini ödəmədiyi bəs deyilmiş kimi, polisə yalan məlumatlar vermək istəyibdir. Qısa zaman kəsiyində özünün QHT rəhbəri, şair, AYB üzvü, korrupsiya ilə mübariz, alim, hətta NASA-nın astronavtı olması haqda gopa basmışdır, təbii ki, ayıq-sayıq orqan işçiləri buna inanmamışdır, ancaq çox da əmin olmayıblar. Polisin səbr kasasını dolduran isə dələduzun lap axırda özünün bir deputat (adını da çəkib, lakin biz sayın deputatın ictimai nüfuzuna xələl gətirməmək üçün yazmırıq) olduğunu söyləməsi olmuşdur. Gərək bunu eləməzdi!

Axı xalq öz deputatlarını yaxşı tanıyır! Baxan kimi kim olduğunu görürük. Sonra bəzi müxalifətçilər guya xalqın deputatlarını tanımadığını söyləyir. Belə iftiralara son qoyulmalıdır.

Halbuki heç Amerikada camaat öz senatorlarını üzdən tanımır. Yol patrulunu dəfələrlə aldadıblar.

Ümumiyyətlə, bizim millət görkəmli şəxsiyyətlərini hərtərəfli tanıyır, sevir, hörmət bəsləyir. Təzəlikcə bir söhbət açıldı, deyir yaşlı adam var, özünü "xalq artisti Mirzə Babayevin qardaşı" kimi təqim edərək ticarət obyektlərindən pul dilənir (hər şeyi öz adıyla yazmalıyıq), restoranlarda müftə yemək istəyir.

Yeri gəlmişkən, mən bu adamla şəxsən rastlaşmışam. Dükanda yanaşmışdı. Heç dəxli olmadan mənə "Mirzə Babayevin qardaşıyam" söyləmişdi. "Mənə nə" düşünərək aralanmışdım, ona görə ağsaqqal nəsə ummağa fürsət bulmamışdı. Televizorda rəhmətlik Mirzə müəllimə aid veriliş olsa bu xatirəmi efirə çıxıb danışa bilərəm. Elgizin zəngini gözləyirəm.

Uzun sözün qısası, bu adamın Mirzə müəllimin qardaşı olmadığı isbata yetirildi, hərçənd balaca planetdəyik, araşdırsan hamı bir-birinə qardaş çıxar. Sözü isə ona gətirirəm ki, bu il universitetlərə yüksək səviyyədə qəbul olmuşdur. Bəzi yerlərdə bütün məktəb universitetə girib. Məsələn, Biləcəridə bir məktəb var, buraxılış sinfinin 40 şagirdi, xadimə, direktorun sürücüsü, qazanxananı işlədən kişi, kitabxanaçı, qarovulçu - hamı qəbul olunub. Hətta valideynlərdən bir neçəsi də 50-60 yaşlarında təzədən oxumaq istəyiblər, onlar da girib. Bu münasibətlə bütün təhsil işçilərimizi, başda Məleykə xanım olmaqla, təbrik edirəm.

Ancaq elə bu şaqraq, şən xəbərin yanında sayın DİM sədrinin qanqaraldıcı açıqlaması vardı, deyir xalqımız bəzi ixtisasları oxumaq istəmir. Sitat: "Hamı dizayner olmaq istəyir. Lakin dirijorluğa, heykəltəraşlığa sənəd verilməyib, maraq azdır".

Dizaynerliyə həvəs, məncə, xalqımızın tikinti-quruculuq işlərinə sevgisindən irəli gəlir. Orta məktəblərdə rəsm dərsləri də buna görə yüksək səviyyədədir. Baxın, hər il dərs başlayanda ən çox satılan mallar plastilin, fırça, albom, flomaster, rəngli karandaşlar olur. Bu temada Ramiz Rövşənin yaxşı şeiri də var: "Qədir məktəbə gedir, Onun yeddi yaşı var. Çoxlu qələm-dəftəri, Rəngli karandaşı var".

Bəs niyə heykəltəraş və dirijor olmaq istəmirik? Məncə, bunun əsas səbəbi həmin sahələrdə iş tapmaq perspektivinin azlığıdır. Nə qədər özünü yorsan da, Ömər Eldarov ola bilməyəcəksən! Bizdə bu sahə Ömər müəllimin monopoliyasındadır.

Yaxud əgər xalq dirijor deyərkən Niyazidən başqasını təsəvvür etmək belə istəmirsə, bu ixtisasa sənəd verməyin mənası, anlamı nədir?

İndi ağlıma gəldi, yol polisi ilə dirijorluq arasında haradasa oxşarlıq vardır. Hərəkət və alətləri də oxşayır.



# Kremlin İrəvandan son tələbi: razılaşmanı ya icra et, ya da...

## Putinin Bakıya yenidən zəngi və Naxçıvana nəqliyyat dəhlizinin açılmasının xüsusi vurğulanması onu göstərir ki, Rusiya Ermənistan hökumətini "özbaşına" buraxmaq fikrində deyil

**Azərbaycanın qərb rayonlarını Ermənistan ərazisindən keçməklə Naxçıvanla birləşdirməli olan marşrut Rusiya, Azərbaycan və Ermənistanın baş nazirlərinin müavinlərinin həmsədrliyi ilə Cənubi Qafqazda bütün iqtisadi və nəqliyyat əlaqələrinin açılması üzrə üçtərəfli işçi qrupu çərçivəsində müzakirə olunur.**

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova son brifinqdə belə deyib. O qeyd edib ki, üçtərəfli işçi qrupda iş Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli sazişləri çərçivəsində həyata keçirilir.

"Biz "Zəngəzur dəhlizi" ideyası ilə bağlı İran tərəfinin müəyyən narahatlığını görürük, bu narahatlığa aydınlıq gətirilməsi üçün Tehrana müraciət etmək lazımdır. Moskvanın Bakı ilə İrəvan arasında kommunikasiyaların açılması ilə bağlı mövqeyi isə aydındır və yaxşı məlumdur. Biz ondan çıxış edirik ki, müvafiq razılaşmalar tərəflərin qarşılıqlı razılığı əsasında və qarşılıqlı məqbul şərtlər əsasında həyata keçiriləcək ki, bu, həm Azərbaycanın, həm Ermənistanın, həm də onların qonşularının maraqlarına cavab versin. Zaxarova əlavə edib ki, Rusiya dövləti Azərbaycan, Ermənistan və Rusiyanın əldə etdiyi üçtərəfli razılaşmaların hələ də alternativi olmamasından çıxış edir. "Qeyd edilən razılaşmalar sülh müqaviləsinin işlənib hazırlanması, sərhədin delimitasiyası, demarkasiyası, regionda nəqliyyat kommunikasiyalarının açılması və vətəndaş cəmiyyəti xətti üzrə əlaqələrin inkişafı da daxil olmaqla, Bakı ilə İrəvan arasında münasibətlərin normallaşmasının bütün əsas istiqamətlərini əhatə edir", - deyə Rusiya XİN sözçüsü bildirib.

Avqustun 28-də Rusiya prezidenti Vladimir Putinin Azərbaycanın dövlət başçısı İlham Əliyevlə telefon söhbətində Naxçıvana nəqliyyat dəhlizinin açılması ilə bağlı fikir mübadiləsi aparılıb. Bununla əlaqədar, Rusiya tərəfi müvafiq qarşılıqlı məqbul həllərin işlənib hazırlanmasında Bakıya və İrəvana hər cür yardımı davam etdirməyə hazır olduğunu təsdiqləyib.

Məlumdur ki, Rusiya prezidenti ötən həftə Ermənistanın baş naziri Nikol Paşinyanla da telefonla danışıb. Kremlin rəsmi məlumatında da qeyd olunur ki, Putin Paşinyana Rusiyanın Ermənistan və Azərbaycana sülh müqaviləsinin hazırlanmasında, sərhədlərin demarkasiyası və delimitasiyasında, həmçinin nəqliyyat və logistika əlaqələrinin açılmasında yardım etməyə hazır olduğunu deyib. Ermənistan mediası bu zənglə bağlı iddia edib ki, Paşinyan Putinin sülh danışıqlarının Moskvada davam etdirilməsi istəyini, həmçinin nəqliyyat və logistika əlaqələrinin Rusiyanın iştirakı ilə (Zəngəzur dəhlizində FTX-nin dayanması) açılmasını qəbul etməyib. Bu iddiaların nə qədər doğru olduğu bilinmir, amma bəllidir ki, Rusiyanın indiki təklifləri Ermənistanın mövcud maraqlarına uyğun gəlmir. Moskvanın təklifini Paşinyanın qəbul etməyəcəyi məlum məsələ idi. Çünki Paşinyan hər bir vasitə ilə Rusiyadan uzaqlaşmağa və Qərbə yaxınlaşmağa çalışır. Bu baxımdan Zvartnos hava limanından Rusiya hərbiçilərini çıxartdı. Hətta Zəngəzur dəhlizi açılacağı təqdirdə də Paşinyan bu dəhlizə nəzarəti Rusiyaya vermək niyyətində deyil. Putinin Bakıya yenidən zəngi və Naxçıvana nəqliyyat dəhlizinin açılması ilə bağlı fikir mübadiləsi aparılmasının xüsusi vurğulanması onu göstərir ki, Rusiya Ermənistan hökumətini "özbaşına" buraxmaq fikrində deyil. Ermənistanda bir çoxları vurğulayır ki, Rusiya özü 10 noyabr razılaşmasını pozub, xüsusilə Qarabağdan könüllü gedən ermənilərin məsələsi ortaya atılır. Hətta o da vurğulanır ki, bu, rəsmi razılaşma deyil, sadəcə, niyyətlərin bəyanıdır.

Rusiyanın xarici işlər naziri Sergey Lavrov "Ermənistanın Sünik (Zəngəzur) bölgəsindən keçən kommunikasiyalara gəlincə, təəssüf ki, baş nazir Nikol Paşinyan tərəfindən imzalanan sazişi sabotaj edən məhz Ermənistan rəhbərliyidir", deyəndə məhz bu "cığallığı" nəzərdə tuturdu. Ermənistanın Lavrova sərt etirazına cavab verən Zaxarova isə bildirib ki, bu, Rusiyanı öz səhvlərinə görə günahlandırmaq üçün növbəti cəhddir: "Bu, rəsmi İrəvanın öz səhv strateji hesablamalarını başqalarının, indiki halda Rusiyanın üzərinə atmasının növbəti nümunəsidir".

Zaxarova deyib ki, beynəlxalq yüklərin tranziti və gömrük nəzarəti məsələləri həll olunub. Amma sərhəd nəzarəti məsələlərində erməni tərəfinin etirazı səbəbindən dəmir yolu xətlərinin işə salınması ilə bağlı yekun razılığa gəlmək mümkün olmayıb. Onun sözlərinə görə, İrəvan əvvəllər razılaşdırılmış mövqelərindən geri çəkilib, Rusiya sərhədçilərinin yerləşdirilməsi ilə bağlı qarşılıqlı prinsipində israr etməyə başlayıb, Rusiya sərhədçilərinin təkcə Ermənistan yox, həm də Azərbaycan tərəfində olmasını istəyib.

Son günlər Zəngəzur dəhlizi ətrafında Rusiya ilə Ermənistan arasında gərginlik sezilməkdədir, Lavrovdan sonra Zaxarovanın da üçtərəfli bəyanatın əsas sənəd olduğunu deməsi Ermənistanın narahatlığını artırıb. Rəsmi Moskva 2020-ci ildə əldə edilmiş üçtərəfli razılaşmanın icrasını tələb etdikcə, Ermənistan daha çox küncə sıxılır. Eyni zamanda görünən həm də odur ki, Qərb iki il əvvəl Ukraynanın timsalında Şərqi Avropada etdiklərini indi də Cənubi Qafqazda təkrarlamaq, Rusiyaya qarşı Ermənistan üzərindən növbəti cəbhə açmaq niyyətindədir.

**Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov bildirib ki, Nikol Paşinyan Vladimir Putinlə danışıqlarda siyasi sövdələşmə təşkil etməyə çalışır:** "O, Rusiya liderini Ermənistana qarşı siyasətini sərtləşdirməməyə inandırmaq istəyir. Paşinyan Rusiya rəhbərliyini hər hansı sərt qərarlar qəbul etməkdən çəkindirməyə can atır. Paşinyan Kremlə qarşıdır, amma Ermənistanın əhalisi Rusiya tərəfdarıdır, buna görə də bir tərəfdən Paşinyanla mübarizə aparmalıyıq, digər tərəfdən isə onu Rusiyadan çox da uzaqlaşmağa qoymaq olmaz. Moskvanın yumşaq siyasəti, İrəvanla təmaslarda dəqiqlik buna görədir. Hər hansı antierməni hərəkətlərin qarşısını almaq istəyindən Rusiya səbr edir. Yeni Ermənistan rəhbərliyi Moskvanın əvvəlki Rusiya-Ermənistan münasibətlərini qoruyub saxlamaq istəyi ilə oynayan bir hiyləgərlik nümayiş etdirən Nikol Paşinyanı hələ cəzalandırmır. Paşinyan isə Vladimir Putinlə danışıqlarda hamını aldada biləcəyini zənn edir. Amma belə deyil..."

❑ Orxan ƏLİYEV,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 155 (8528) 30 avqust 2024

# Putinin Bakıya zəngini zəruri edən üç mühüm səbəb

## Azərbaycandan yeni qayıdan Kreml liderinin həmkarı ilə müzakirələrinin pərdəarxasında nələr var?; Cənubi Qafqazda hərbi-diplomatik gərginlik artmaqdadır - analitiklər sensasion detallar açıqladılar

**Azərbaycan və Rusiya liderləri İlham Əliyevlə Vladimir Putin arasında telefon danışığı olub. "Yeni Müsavat"ın məlumatına görə, tərəflər Cənubi Qafqazdakı mövcud vəziyyətin müxtəlif aspektləri, o cümlədən Azərbaycan-Ermənistan sülh müqaviləsinin hazırlanması, sərhədin delimitasiyası və demarkasiyası, iki dövlət arasında nəqliyyat əlaqələrinin açılması kimi məsələlər ətrafında müzakirələrə davam ediblər.**



Maraqlıdır ki, bu telefon danışığı Rusiya prezidenti Vladimir Putinin avqustun 18-19-da Azərbaycana səfərindən cəmi bir neçə gün sonraya təsadüf edib. Rəsmi məlumatdan da bəlli olur ki, zəng Rusiyanın təşəbbüsü ilə baş tutub. Bakıdan getdikdən sonra Putinin Ermənistanın baş naziri Nikol Paşinyanla telefon danışığı olub və Azərbaycan Prezidenti İlham Əliyevlə danışıqların nəticələrini müzakirə etdiyi bildirilir. İddialara görə, Paşinyan Putinin sülh danışıqlarının Moskvada davam etdirilməsi istəyini nəqliyyat və logistika əlaqələrinin Rusiyanın iştirakı ilə (Zəngəzur dəhlizində FTX-nin dayanması) açılmasını qəbul etməyib. Rəsmi məlumata istinad etsək, telefon söhbətində sülh danışıqlarına və Zəngəzur dəhlizi ilə bağlı İrəvanın mövqeyi müzakirə olunub. Amma Putinin səfərindən sonra daha iki mühüm gəlişmə də yaddan çıxmamalıdır: bunlardan biri Putinin səfərindən sonra Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Ankaraya getməsi və həmkarı Hakan Fidanla görüşməsidir.

Ekspertlər də Rusiya prezidentinin Azərbaycana səfərindən sonra Bakının Türkiyə ilə məsləhətləşmələrə ehtiyacı yarandığını ehtimal edir. Məlumdur ki, Cənubi Qafqazda təhlükəsizlik sisteminin qurulması yolunda Bakı və Moskva arasında davamlı məsləhətləşmələr, siyasi müzakirələr aparılır. Bu gün şimalda və cənubda baş verən qlobal müharibələr fonunda Cənubi Qafqazda nizamın qurulması müstəsna əhəmiyyətə malikdir. Rusiya Cənubi Qafqazda ənənəvi maraqlarını güdməsi ilə yanaşı, qardaş Türkiyənin də yeni reallıqlarda bu regionda mövqeyi çox möhkəmdir. Şübhəsiz ki, Rusiya, Azərbaycan və Türkiyənin Cənubi Qafqazda da etibarlı münasibətlər qurması kənar güc mərkəzlərini, böyük dövlətləri, qurumları narahat edir.

İkinci gəlişmə isə Ukrayna prezidenti Zelenskinin Rusiya qazının tranziti ilə bağlı razılaşmanı uzatmayacağı haqda bəyanatıdır ki, bu, Moskva ilə bərabər Bakının da marağında olan məsələdir.

Yada salaq ki, Zelenski Rusiya ilə razılaşmanı davam etdirməyəcəyini, "digər şirkətlərdən qaz tranzitinə gəlincə, bəzi avropalı həmkarlarımız istəyərsə, onların xahişlərinə baxa bilərik" deyib. Ehtimal edilir ki, Putinlə Əliyev bu məsələ ilə bağlı da mövqelərini bir daha aydınlaşdırıblar.

**Analitik Elxan Şahinoğluna görə, Putin Bakıya səfərinin ardınca, əvvəlcə Paşinyanla, bir neçə gün sonra isə Əliyevlə telefonla danışıbsa, deməli, Kreml lideri anlayır ki, Ukrayna ilə müharibə fonunda və Rusiya üçün indiki ağır vəziyyətdə Cənubi Qafqazdakı maraqlarını qorumaq çətindir:** "Kreml Bakı ilə İrəvan arasında vasitəçi ola bilmir, sülh sazişinin mətninin hazırlanmasında və sərhəd danışıqlarında iştirak imkanlarını itirib. Kremlin yeganə yapışmaq istədiyi mövzu Zəngəzur dəhlizidir. Rusiya həm bu dəhlizdən istifadə, həm də dəhlizə nəzarət etmək istəyir və bu zaman 2020-ci il 10 noyabr üçtərəfli bəyanatına istinad edir".

**Siyasi şərhçi Asif Nərimanlı isə diqqəti iki məsələyə yönəldir:** "Birincisi bəllidir: daha öncə də Rusiyanın Bakı-İrəvan danışıqlarında təşəbbüsü ələ almaq, Qərb qüvvələrini kənarlaşdırmaq və regionun kommunikasiyanın açılmasında iştirakını təmin etmək. İkincisi açıq olaraq qalır: Paşinyan nə istəyib və Putin Əliyevə nəyi çatdırıb? Rusiya danışıqların indiki mərhələdə Moskvaya köçürülməsini istəyir, hətta bu, müvəqqəti xarakter daşısa da. Çünki ABŞ-ın aktivliyi fonunda Rusiyaya bir addım önə çıxmaq lazımdır. Putin Azərbaycanda olarkən, rəsmi Bakı Moskvada danışıqların davam etdirilməsinə razı olduğunu bəyan etdi. Məntiqlə Putinin Paşinyanla müzakirəsindən konkret nəticə çıxmalı idi. Lakin yenidən Bakıya zəng etmək zərurətinin yaranması müəyyən ehtimallar yaradır: mümkündür ki, Paşinyan Moskvada danışıqlara gəlmək üçün şərt irəli sürür".

**Təhlilçinin fikrincə, mövcud vəziyyətdə İrəvanın iki mümkün şərt irəli sürməsi ehtimalı var:** "Kommunikasiyanın suverenlik prinsipi əsasında açılması. Bakının ən azı Naxçıvana maneəsiz keçid reallaşmadan Bakının bu məsələdə razılaşmayacağı məlumdur. Maneəsiz keçid dəhlizdə yer almaq üçün Rusiyaya da lazım olduğu üçün belə bir şərt real görünmür. Sərhədin delimitasiyasında Almatı Bəyannaməsinin danışıqlardakı əsas prinsip kimi qəbul edilməsi var. Bu, İrəvana mövcud sərhədlərdə legitimlik əldə etmək və Azərbaycan qoşunlarının geri çəkilməsinə nail olmaq üçün lazımdır. Sülh danışıqlarını ələ almaq və kommunikasiyada iştiraka nail olmaq istəyən Rusiya üçün sərhəd məsələsi o qədər də prinsipial görünmür. İstisna deyil ki, Putin Paşinyanın bu "şərtini" Əliyevə çatdırıb".

**A.Nərimanlı hesab edir ki, bu ehtimalı önə çıxaran məqamlardan biri də Putin-Əliyev danışıqları ilə bağlı rəsmi məlumatlardakı detal fərqidir:** "Kremlin rəsmi məlumatında sərhədin delimitasiyası məsələsi qeyd olunsa da, Bakının rəsmi məlumatında bu məqam yer almır. Proseslər hələ ki diplomatik müstəvidə gedir, hərçənd isti mərhələyə keçməsi və hərbi təxribatların olması da istisna edilməməlidir. Mümkündür ki, Rusiya masasına gəlmək istəməyən Paşinyan Putinə birbaşa "yox" deyə bilmir və çətin "şərt" irəli sürməklə Bakını görüşdən imtina edən tərəfə çevirmək istəyir. Diplomatik manevrlər tükənəndə Ermənistanın eskalasiya yaratmaq və bunu Rusiya və Azərbaycanın birgə planı kimi göstərmək ssenarisinə əl atması gözlənilən versiyalardandır".

**Siyasi icmalçı Aqşin Kərimovun qənaətinə görə, Putin Paşinyanla telefon danışığından sonra Əliyevə zəng etməklə Azərbaycan-Rusiya geosiyasi karyerasının gedə biləcəyi yerləri dəqiqləşdirir. Onun fikrincə, Rusiya Ermənistanla bağlı əldə etdiyi və ya ələ göstərməyə çalışdığı heyranedici kəşfiyyat məlumatlarını Azərbaycanla bölüşməyi zəruri hesab edir və bununla Moskva iki məsələni prioritetləşdirir:** "Rusiya Azərbaycan üzərindən Ermənistana siqnallar ötürməklə Moskvanın regiondakı ambisiyalarını Qərbin sıxışdırılması tendensiyası ilə tutuşdurmağa çalışır. Rusiya regional kommunikasiyaların açılması məsələsinin təzyiq, yoxsa siyasi yolla həllini yoxlayıb nəticələri buradan yola çıxaraq təmin etmək istəyir. İranın Zəngəzur dəhlizinə maneə yaratması risklərinin qalması Rusiyanın Tehranla danışıqlar masasını hədsiz canlandırmasına təkan verir. Regionda Rusiya ilə Qərb arasında geosiyasi maxinasiya qurmaq üçün apardığı rəqabət Azərbaycanı düzgün strateji qərarlar verməyə məcbur edir. Bunlar, Ermənistanın silahlanmaqla regionun mərkəzi səhnəsinə çıxmağa hazırlaşdırılması fonunda aşkar şəkildə görünəcək". **Ekspertin sözlərinə görə, nəticədə Azərbaycan-Rusiya danışıqlarındakı "Zəngəzur atmosferi" Ermənistanın onsuz da məhdud seçim imkanlarını aradan qaldırır və Bakının şərtləri əsasında İrəvanın güzəştə getməsi üçün təzyiqlər yaradır:** "Prosesin sülh danışıqları və ya güc tətbiqi ilə reallaşması isə ən çox Ermənistanın güzəşt kodeksinə hansı dərəcədə əməl edib-etməyəcəyindən asılıdır".

**❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"**




# III dünya müharibəsi başlasa, Türkiyə və Azərbaycan da qoşulacaq?

**Respublikaçılar Partiyasından ABŞ prezidentliyinə namizəd Donald Tramp dünyanı qorxudan açıqlama verib. Belə ki, o, Ukrayna ordusunun Rusiyanın Kursk vilayətində keçirdiyi hərbi əməliyyatların üçüncü dünya müharibəsinə gətirib çıxara biləcəyini qeyd edib.**

"Baxın, Ukraynada nə baş verir. Rusiyaya doluşublar. Üçüncü dünya müharibəsi olacaq", - Tramp deyib.

Üçüncü dünya müharibəsi olarsa, deməli, NATO da münaqişəyə birbaşa daxil olacaq. Belə olan halda Türkiyənin, eləcə də onunla Şuşa Bəyannaməsi imzalamış Azərbaycanın da müharibəyə daxil olma ehtimalı varmı?

Modern.az-a danışan türkiyəli **hərbi ekspert Abdullah Ağar** bildirib ki, üçüncü dünya müharibəsinin başlanma riski var, amma Türkiyə və Azərbaycanın müharibəyə qoşulmaq riski böyük deyil: "Əvvəla, Ukrayna müharibəsinin bizə aidiyyəti yoxdur. Bu, Rusiya ilə Atlantik bloku arasında olan, NATO-nun da daxil edilməyə çalışıldığı, xüsusilə SSRİ-nin dağılmasından sonra Avropa konyukturasına tabe olmamaqdan qaynaqlanan reallıqdır. Digər tərəfdən, soyuq müharibədən sonra Rusiya və Böyük Britaniya arasında bir sıra siyasi proseslərin manipulyasiyalarının yaratdığı problemlər var. Atlantik bloku ilə Avrasiya bloku arasında İraq və Əfqanıstan işğalı ilə bağlı geopolitik gərginliklər mövcud idi. Bu səbəblərlə əlaqədar Ukraynada müharibənin başladığına şahidlik etdik. Soyuq müharibənin silahlanma dönəmində Rusiyanı iqtisadi baxımdan çətinə salan Qərbin sovetləri dağıtdığını, bu gün də bənzər metodlarla Ukrayna üzərindən Rusiyanı diz çökdürməyə çalışdığını görürük. Bu nöqteyi-nəzərdən baxıldıqda rahatlıqla deyə bilərik ki, münaqişə bizimlə bağlı deyil, adını çəkdiyimiz iki qütb arasındadır. Türkiyə bunu gördü və balans siyasəti, aktiv tərəfsizlik nümayiş etdirdi. Bu pozisiyasını həm ABŞ, həm də Rusiya tərəfinə qəbul etdirdi. Bəli, hazırda risk olsa da, biz müharibəyə daxil olmaq meylində deyilik. Müxtəlif təzyiq və sanksiyalarla üstümüzə gəlsələr, qarşılaşdığımız reallığa uyğun olaraq mövqe dəyişikliyi ola bilər. Amma nə Türkiyə, nə də Azərbaycan mövqeyini dəyişməyə meyllidir. Bu, bir reallıqdır. Bizə qarşı bir hücum olduğu təqdirdə isə özümüzü necə müdafiə etməyi yaxşı bilirik".

YENİ MÜSAVAT
N 155 (8528) 30 avqust 2024



## Bəs Vigen nə deyir?

**Rusiyanın Ermənistan ərazisindən keçən dəhliz (Zəngəzur) məsələsini yenidən aktuallaşdırması İrəvanın təbliğat maşınına zərbə oldu. Çünki İrəvan Bakının məsələnin müvəqqəti olaraq gündəmdən çıxması barədə açıqlamasını “ciddi diplomatik uğur” kimi təqdim edirdi.**

Teleqraf.com xəbər verir ki, bunu erməni politoloq Vigen Akopyan deyib.

Onun sözlərinə görə, İrəvan 10 noyabr bəyanatını baş nazir Nikol Paşinyanın “Sülh qovşağı” projesi ilə tutuşdurmağa çalışsa da, heç kim bunu ciddiyə almır.

Akopyan Rusiyanın Zəngəzur dəhlizinin açılması ilə bağlı aktiv səylərinə diqqət çəkib: “Rusiyanın əsas məqsədi statusundan asılı olmayaraq bu marşrutu nəzarətə götürməkdir. Yəni dəhlizin geosiyasi rəqiblərinin əllərinə keçməsini istəmir.

Azərbaycan və Türkiyənin də son məqsədi bu dəhlizin açılmasıdır. Bu məsələ uzunmüddətli perspektivdə gündəmdə qalacaq və məqsədlərinə çatmağa çalışacaqlar".

Politoloq hesab edir ki, Rusiya 10 noyabr bəyanatını əsas götürərək, hələlik Zəngəzur dəhlizinin Qərbin nəzarətinə keçməsinə mane olur.

“Bu arada, İran Ankara və Bakıya öz ərazisi vasitəsilə alternativ təklif edərək dəhliz məntiqinə zidd olduğunu bildirir. Tehran da Rusiyanın yola nəzarət etməsinə qarşı çıxa bilər. Amma İran baxımından Qərbin nəzarətindənsə, Rusiyanın nəzarəti daha məqbuldur. Buna görə də 10 noyabr bəyanatı İran üçün faydalı ola bilər”, - Akopyan əlavə edib.

Erməni şərhçinin qiymətləndirməsinə görə, dəhliz istənilən halda açılacaq, sual onun de-yure, yoxsa de-fakto olması ilə əlaqəlidir.

# Zəngəzurdan köç artır - hara gedirsən, ara?

## Bölgəni 40 mindən çox insan tərk edib"; revanşist merlərin vəzifədən uzaqlaşdırılması prosesi başlayır, amma...



**“Ermənistanın Sünik bölgəsində yaxın gələcəkdə təlatümlü siyasi hadisələr gözlənilir”. Bu barədə “Hraparak” qəzeti xəbərdarlıq edib. İddia olunur ki, Gorus şəhərinin meri Aruş Aruşanyanın , Kacaranın meri Manvel Paramazyan və Qafan şəhərinin rəhbəri Gevorq Parsyanın vəzifədən uzaqlaşdırılması üçün müxtəlif tədbirlər görülür.**

“Əgər nəzərdə tutulanları "sülh yolu ilə" həyata keçirmək mümkün olmasa, onların bəziləri Ermənistanın baş naziri Nikol Paşinyana xas üslubda dəmir barmaqlıqlar arxasına düşə bilər. İctimai dairələr nə qədər vaxtilə üsyankar icma başçılarının Paşinyanın “dinini” qəbul etdiklərini düşünsələr də, onların hakimiyyətə sədaqəti daha çox vilayət qubernatoru Robert Qukasyanın amili ilə bağlıdır. Sonuncu icma başçıları ilə isti insani və işgüzar münasibətlər qurub və onları bəzi dövlət tədbirlərində iştirak etməyə inandırıb, baş naziri və onun xanımını salamlayıb, siyasi elitadan qarşılıqlı konstruktiv münasibət vəd edib. Bununla belə, Nikol Paşinyan bütün insani münasibətlərdən üstündür, ona görə də qarşıdan gələn siyasi və seçki prosesləri öncəsi bütün mümkün maneələri aradan qaldırmaq qərarına gəlib", - nəşr qeyd edir.

Bu arada bildirilib ki, 2019-cu illə müqayisədə Zəngəzur əhalisinin sayı 15% azalıb. Bunu “Aprelu Yerkir” partiyasının həmtəsisçisi, keçmiş əmək və sosial məsələlər üzrə nazir Mesrop Arakelyan yazıb. O bildirib ki, Geqarkunik əhalisi 6%, Tavuş əhalisi isə 4% azalıb. “Ümumilikdə sözügedən vilayətləri 40 mindən çox insan tərk edib”, - keçmiş nazir qeyd edib.

**VI çağırış Milli Məclisin deputatı Azər Badamov erməni baş nazirin dəhlizin açılması məsələsini gündəliyə gətirəcəyini düşünür:** “Zəngəzur dəhlizinin açılması labüd məsələdir. Çünki bu dəhliz Ermənistan üçün nəfəslikdir. İndi başa düşüblər ki, Zəngəzur dəhlizinin açılması onların özləri üçün hər şeydən vacibdir. Ermənistanın Gürcüstandan Rusiyaya gedən yeganə yol problemlidir və vaxtaşırı nəqliyyat vasitələrinin hərəkəti dayandırılır. Digər tərəfdən, Türkiyə ilə yolun açılması da Zəngəzur dəhlizinin açılmasından sonra baş verəcək. Bu baxımdan Azərbaycanla kommunikasiyaların açılması Ermənistana dayanıqlı şəkildə əsas ixrac bazarı olan Rusiyaya və qonşusu olan Türkiyəyə yolların açılmasına gətirib çıxarır. Ona görə də son vaxtlar Paşinyan hakimiyyətində Zəngəzur dəhlizinin açılması istiqamətində hazırlıq işlərinin görüldüyünü müşahidə edirik. Merlərin və icra rəhbərlərinin dəyişməsi üçün Paşinyanın hərəkətə keçməsi həm Zəngəzur dəhlizinin açılmasına, həm də qarşıdan gələn parlament seçkilərinə hazırlıqdır. Sünik vilayəti Paşinyan hakimiyyətinə sədaqətli deyil və həmişə məhz həmin bölgədə hökumətə qarşı mütəmadi etiraz aksiyaları baş qaldırır. Bu baxımdan, Paşinyan özünə qarşı olan qüvvələri neytrallaşdırmaqla planlarını maneəsiz həyata keçirmək istəyir.

Ermənistanın Sünik vilayəti, kommunikasiyalar açılmasa, perspektivsiz bir dalandır. Ona görə də bu gün həmin vilayətdə əhalinin demoqrafik azalması sürətlə baş verir. Bu da Ermənistan hakimiyyəti üçün bir siqnaldır".

Ədalət, Hüquq və Demokratiya Partiyası sədrinin müavini, politoloq Niyaməddin Orduxanlı deyib ki, Ermənistan indi çox yaxşı başa düşür ki, 2020-ci ildə imzaladığı üçtərəfli bəyannamədə (Azərbaycan, Rusiya və Ermənistan tərəfindən) götürdüyü öhdəliyi uzun müddət yubada bilməyəcək. Bu gün Zəngəzur dəhlizinin açılmasında hamıdan çox Rusiya maraqlı görünür. Çünki Rusiya Qərbin ən ağır sanksiyaları ilə qarşı-qarşıyadır. Rusiya yaxşı bilir ki, bu günə qədər Zəngəzur dəhlizinin açılmasını Qərb istəmir. Qərb bu tapşırığını Paşinyan hakimiyyəti icra edir. Azərbaycan üçünsə iki vacib məqam var. Birincisi, Ermənistanla sülh sazişi imzalanmayana qədər hər hansı bir kommunikasiyanın açılması qəbuledilməzdir. İkincisi, sülh sazişi olmadan qardaş Türkiyə ilə Ermənistanın sərhəd xətlərinin açılması. İnanmırıq ki, Türkiyə bunu etsin. Biz öz dövlətimizin maraqlarını qoruyuruq. Prezident İlham Əliyev də məsələyə dövlət maraqlarından yanaşır. Əlbəttə ki, Rusiya bütün gücü ilə özünün maraqlarından çıxış edir. Və imkan verməz ki, Zəngəzur dəhlizinə Qərb nəzarət etsin. ABŞ hərbi təyyarəsinin Zəngəzura gəlməsi də təsadüfi deyil. Tək Zəngəzurda deyil, 2020-ci ildən sonra bütövlükdə Ermənistanda əhalinin sayı kifayət qədər azalmaqdadır. Ağıllı ermənilər başa düşür ki, Ermənistanın siyasi rəhbərliyinin Qərbin və ya Rusiyanın əlində oyuncağa çevrilməsi, bu ölkənin gələcəyinin olmaması deməkdir. Ona görə də övladlarının gələcəklərini düşünərək bölgəni tərk edirlər. Rəsmi məlumatlara görə, son illərdə on minlərlə erməni Ermənistanı tərk edib".

**Beynəlxalq münasibətlər üzrə şərhçi Şəhla Cəlilzadə isə diqqətimizə çatdırdı ki, Azərbaycan Ermənistanla sülh müqaviləsinin şərtlərindən biri kimi Zəngəzur dəhlizinin açılması məsələsini irəli sürürdü:** “Lakin bu məsələdə güzəştə getdik. Zəngəzur dəhlizinin açılması məsələsini sülh müqaviləsindən sonrakı danışıqlar mərhələsinə saxlamağa razılıq verdik. Buna baxmayaraq Ermənistan daxilində revanşistlərin əli ilə hadisələri qızışdırmağa, Azərbaycanla sərhəddə yeni atışmalarla gərginliyi artırmağa və Ermənistanı silahlandırmaqla müharibəyə sürükləməyə çalışan qüvvələr var. Bu qüvvələrin lokal təmsilçiləri, yerli üzvləri Aruşanyan, Paramazyan və Parsyan kimi şəxslərdir. Aruşanyanın siyasi profilinə baxdıqda aydın görmək olur ki, o, Xocalı qatili Köçəryanın kadrıdır. Ermənistanda 2021-ci ildəki parlament seçkilərində də "Hayastan" fraksiyasından, yəni revanşist qüvvələrin fraksiyasından namizədliyi irəli sürülmüşdü. 2022-ci ildə seçki saxtakarlığı və digər qanunsuz əməllərinə görə həbs olunan Aruşanyana 5 il müddətinə yerli idarəetmə orqanında vəzifə tutmaq qadağa olunmuşdu. Lakin Ermənistan qanunvericiliyindəki bəzi ziddiyyətlər nəticəsində hələ də mer olaraq qalır. Parsyanın ən son açıqlamalarına baxdıqda görürük ki, o, “Böyük Ermənistan” xülyası ilə yaşayır. “Artsax daima Sünikin dayağı, Sünik isə Artsaxın dayağı olub. Bu iki sütun olmadan Böyük Ermənistanı yaşada bilmərik” deyən Parsyanın hansı qüvvələrə xidmət etdiyi aydındır. Azərbaycan sərhədindəki vilayətlərə bu cür şəxslərin rəhbərlik etməsi regional sülh və təhlükəsizlik üçün ciddi təhdiddir. Odur ki, onların hakim mövqedən uzaqlaşdırılması əslində Paşinyanın regional gərginliyi azaltmaq istəyindən irəli gələ bilər. Zəngəzurda müharibə ocağının alovlandırılması bir sıra qüvvələrin marağına cavab verə bilər, bu, həm Rusiya, həm də Qərb üçün müəyyən dividentlər gətirə bilər. Qərb hərbi-siyasi olaraq Ermənistanda möhkəmlənər, Rusiya isə özünün çoxdankı arzusunu reallaşdırar - Azərbaycan qanı-canı bahasına qlobal koridora nəzarət imkanı əldə edər. Hətta bu ilin əvvəli ABŞ-ın məşhur beyin mərkəzi olan “Stratfor” proqnoz vermişdi ki, 2024-cü ilin ilk 6 ayında Azərbaycan-Ermənistan arasında sülh olmazsa, Zəngəzurda müharibə olacaq. Müharibə ssenarilərinin maraqlı tərəfləri artıq məlumdur, lakin Azərbaycan daima öz milli maraqlarından irəli gələn gündəliklə çıxış etməlidir. Azərbaycanın qarşıdakı dövrdə ən əsas uğuru sülh müqaviləsinin imzalanması, regional sülh və sabitliyin əldə olunması, cənab Prezidentin elan etdiyi yeni dövr siyasi quruculuğunu uğurla həyata keçirmək, rifah və inkişaf göstəricilərində bölgədə liderliyini qorumaq, Ermənistanla regional kommunikasiyaları sivil yollarla açmaq, geostrateji və iqtisadi üstünlükləri sayəsində siyasi dividentlər qazanmaq və beləcə, bölgənin lideri olaraq özünü bir daha təsdiq etmək olacaq".

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 155 (8528) 30 avqust 2024

# NATO-nun keçmiş baş katibindən anti-Azərbaycan çağırışları

## 10 il öncə Azərbaycan dövləti və prezidenti haqqında yüksək fikirlər söyləyən Rasmusseni kim və necə dəyişdi - ilginc detallar

**NATO-nun keçmiş baş katibi Anders Foq Rasmussen Qərblə Ermənistanın gələcək qarşılıqlı fəaliyyəti mövzusunda məqalə dərc edib. Öncə onu qeyd edək ki, Rasmussenin, həm də onun rəhbərlik etdiyi “Ermənistanın Dostları Şəbəkəsi”nin Azərbaycana qarşı qərəzli münasibəti çoxdan bəllidir.**

O, 2023-cü il martın 14-də Laçın rayonu ilə şərti sərhədə gələrək “Qarabağa qayıda bilməyən” ermənilərlə görüşmüşdü. Həmin vaxt məlum oldu ki, Andreas Foq Rasmussenin rəhbərlik etdiyi “Rasmussen Global” siyasi konsaltinq təşkilatı məhz Ermənistandan, Qərb dövlətlərindəki erməni diasporundan maliyyələşir. Baş ofisi Kopenhagen şəhərində yerləşən qurumun Brüssel, Berlin, London və Vaşinqton şəhərlərində ofisləri var. Ermənilər Rasmussen vasitəsilə Avropa İttifaqının aparıcı təşkilatlarında Azərbaycan əleyhinə sərt qərarların qəbul edilməsinə çalışırlar. Sözügedən məqalə də bunu bir daha göstərir. Ramussen yazısında Aİ-yə çağırış etməyə xüsusi diqqət edir. Belə ki, NATO-nun sabiq baş katibi Ermənistan istiqamətindən təcavüz başlayarsa, Azərbaycanı gözlənilən nəticə ilə hədələyir, Avropa Sülh Fondunun maliyyələşdirilməsi vasitəsilə Ermənistana siyasi, iqtisadi və müdafiə yardımının daha da gücləndirilməsinə, Almaniyaya isə Fransadan nümunə götürərək Ermənistana hərbi yardım göstərməyə çağırış edilir. Rasmussen ABŞ-la hərbi təlimlərin intensivləşməsindən, Ermənistanın Aİ ilə yeni iqtisadi əlaqələrinin qurulmasından, KTMT-dən çıxmaq istəyindən də bəhs edir.

Bu ilin yazında anti-Azərbaycan mövqeyi ortaya qoyan Rasmussenə Bakıdan kifayət qədər sərt cavab verilmişdi. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Danimarkanın keçmiş baş naziri və NATO-nun keçmiş baş katibi Anders Foq Rasmussenin rəhbərlik etdiyi qrupun hesabatında yer alan iddialara dair şərhində bildirmişdi ki, Anders Rasmussen öz lobbi şirkəti “RasmussenGlobal”ı tanıtmaq, şübhəli lobbiçilik və təsir xidmətləri göstərmək üçün NATO-nun keçmiş baş katibi statusundan sui-istifadə edir. “Açıq mənbələrdən əldə edilən maliyyə sənədləri sübut edir ki, Anders Rasmussen öz lobbi şirkəti "RasmussenGlobal"ı tanıtmaq, şübhəli lobbiçilik və təsir xidmətləri göstərmək üçün NATO-nun keçmiş baş katibi statusundan sui-istifadə etməkdə davam edir. Ermənistan hökuməti onun müştərisi kimi, “çox düşünülmədən təsdiqlənmiş” bu hesabata görə yüz minlərlə ABŞ dolları xərcləyib", - XİN sözçüsü aydın mətnlə bildirmişdi. Görünür, ermənilərin vitrinində görünməklə auksionda qiymətini qaldırması NATO-nun sabiq baş katibinin diş altında olan iştahını açıb və növbəti dəfə cəfəng iddiaları tirajlamasına stimul verib. Əks təqdirdə, sözügedən məqaləyə lüzum olmazdı.


Anders Foq Rasmussen

**Məqalə ilə bağlı geniş şərh verən politoloq Fərhad Məmmədov qeyd edir ki, Rasmussenin təqdim etdiyi Ermənistan görüntüsü İrəvanı Rusiyanın forpostundan Qərbin forpostuna çevirmək istəyi deməkdir:** “Bir daha görürük ki, Ermənistanın coğrafiyasına, resurslarına və tarixinə əsaslanaraq formalaşmalı olan təbii maraqları xarici sponsorların maraqları ilə əvəzlənir. Ermənistan regiondankənar aktorların maraqlarını ölkənin yaxın qonşularının gözləntilərindən üstün tutur”. **Politoloqa görə, Ermənistan rəhbərliyi dərk etməlidir ki, belə mövqe dayanıqlı deyil və sponsor ölkələrin konkret liderlərinin maraqları ilə bağlıdır. F.Məmmədov hesab edir ki, təhlükəsizlik sistemində sabitlik ancaq konkret qonşularla - Azərbaycan, Türkiyə, Gürcüstan və İranla əldə edilə bilər**: “Son 25 ilin təcrübəsi göstərdi ki, forpost olmaq, qonşulara qarşı istifadə edilmək müəyyən müddətə təsir göstərə bilər, amma qaçılmaz fəlakətə gətirib çıxarır. Ermənistan öz qonşularını qıcıqlandırmamaq və təhdid etməmək üçün subyekt olmağı öyrənməlidir. Bütün bunlar yenə əvvəlki mətnlərdə qeyd olunan neytral statusun qəbulu ilə bağlıdır”.

**Mövzu ilə bağlı “Yeni Müsavat”a açıqlama verən politoloq Məhəmməd Əsədullazadə bildirdi ki, Ermənistan rəhbərliyi NATO-nun sabiq baş katibi Rasmussenin “xidmətlərindən” müharibədən əvvəl istifadə etməyə başlayıb:** “Vaxtilə Rasmussenin NATO baş katibi olması onun Qərbin bir çox mərkəzləri ilə əlaqələr qurmasına imkan verib. Ermənistan hakimiyyəti də ondan məhz pul müqabilində istifadə etməyə başlayıb. Xüsusilə bu istifadə anti-Azərbaycan ritorikası ilə davam edir. Baş nazir Nikol Paşinyan onu ölkəsinə dəvət edib və baş verənlərə görə də məhz özü məsuliyyət daşıyır. O, bir tərəfdən sülh müqaviləsindən danışır, digər tərəfdən isə Azərbaycana qarşı qara kampaniya aparır. Bu, Ermənistan rəhbərliyinin sülh müqaviləsində maraqlı olmadığını, informasiya müharibəsi apardığını göstərir”. **Ekspert hesab edir ki, bu yolla Qərbin Azərbaycana qarşı təzyiqlərinə yol açmaq istəyirlər:** “Faktiki olaraq Azərbaycan və Türkiyə ilə normallaşma prosesinə zərbə vurmaqla öz əleyhinə təbliğat aparmış olurlar. Lakin Rasmussenin anti-Azərbaycan yazıları heç də ölkəmiz əleyhinə geniş təbliğata gətirib çıxarmayacaq. Qərb dövlətləri ilə Azərbaycan arasında sıx siyasi və enerji sahəsində əməkdaşlıq var. Qərb də Azərbaycanla Ermənistan arasında sülhün əldə edilməsində maraqlıdır. Nikol Paşinyan Qərbin təzyiqləri fonunda Rasmusseni ortaya atmaqla çalışır ki, danışıqlarda müəyyən üstünlüklər əldə etsin. Amma bu kimi yazılar və təbliğatla Qərb sülhü pozacaq prosesə nazil ola bilməz. Fransa burada nələrsə edə bilər. Amma Almaniya, Böyük Britaniya və İtaliya buna getməyəcək. Hesab edirəm ki, Azərbaycan da Qərbdə təbliğat işlərini qurmalı və informasiya müharibəsində müdafiə mövqeyində dayanmamalı, hücuma keçməlidir”.

Yeri gəlmişkən, Anders Foq Rasmussen NATO-nun baş katibi olarkən Azərbaycana, Prezident İlham Əliyevə hər zaman sayğılı davranıb, bu barədə fikirlərini açıq şəkildə ifadə edib. Məsələn, on il əvvəl Brüsseldə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO-nun baş katibi ilə görüşmüşdü. Anders Foq Rasmussen dövlətimizin başçısı İlham Əliyevi yenidən prezident seçilməsi münasibətilə təbrik edərək ona fəaliyyətində uğurlar arzulamışdı. Prezident İlham Əliyevin NATO-ya, özünün isə 2012-ci ildə Bakıya etdiyi səfərləri xatırlayan Anders Foq Rasmussen keçirilən görüşlər zamanı səmərəli müzakirələrin aparıldığını demişdi. NATO-Azərbaycan əlaqələrinin uğurla inkişaf etdiyini deyən baş katib Əfqanıstanda həyata keçirilən sülhyaratma əməliyyatları zamanı Azərbaycanın tranzit, maliyyə yardımı və digər sahələrdə göstərdiyi dəstəyə görə minnətdarlığını bildirmişdi. NATO-nun baş katibi Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin, o cümlədən Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsi baxımından mühüm ölkə olduğunu deyib, əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminliyini vurğulamışdı. Eyni zamanda mətbuat konfransında çıxış edən baş katib Anders Foq Rasmussen “biz Cənubi Qafqaz regionuna sadiqik və sadiq qalacağıq. Azərbaycan Avropanın enerji təhlükəsizliyi, Qafqazda isə sülh və sabitlik üçün həyati əhəmiyyət kəsb edən ölkədir. Eyni zamanda Azərbaycan NATO üçün vacib və əhəmiyyətli tərəfdaşdır. Biz qoşunlarınızın Əfqanıstanda aparılan əməliyyatlara verdiyi qətiyyətli dəstəyə görə minnətdarıq. Biz həmçinin NATO-nun əməliyyatlarına hava məkanından istifadə və tranzit marşrutları formasında verilən siyasi dəstəyə görə təşəkkür edirik. Nəhayət, Əfqanıstanın təhlükəsizlik qüvvələrinin təlimlərinə verdiyiniz xeyirxah dəstəyinizə görə də "çox sağ olun" deyirik.

Cənab Prezident, 2014-cü ildən sonra əfqan təhlükəsizlik qüvvələri üçün təlim keçirmək, məsləhətlər vermək və yardım etmək kimi Əfqanıstandakı yeni missiyamıza verəcəyiniz davamlı dəstəyə görə minnətdaram" demişdi.

Bəs nə baş verdi ki, keçmiş baş katib “val”ı çevirdi və anti-Azərbaycan mövqeyi sərgiləməyə başladı? Nə baş verib: Azərbaycandan şəxsi maraqlarının təmin olunmasını gözləyib, buna nail ola bilməyib? Yoxsa ölkəmizin öz ərazilərini hərbi yolla azad etməsi onu da hövsələdən çıxarıb və Qarabağın əbədi ilhaqı ilə bağlı planın iflasa uğramasını sinirə bilmir? Hər halda, suallar çoxdur, amma çətin ki, keçmiş baş katib cəsarət nümayiş etdirib Azərbaycana nifrətinin, qərəzinin kökündə dayanan səbəbləri dilə gətirsin, ən azı erməni pulları onun dilinin açılmasına imkan verməz...

❑ **E.Paşasoy, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 155 (828) 30 avqust 2024



## “Fındıq məsələsi” böyüyür

**Quba-Xaçmaz və Şəki-Zaqatala bölgələrindən olan bir qrup fermer hər il olduğu kimi, bu il də qiymətlərin məqsədyönlü şəkildə endirildiyindən şikayət edib. Onlar bildiriblər ki, fındığın bir kiloqramını 2 manat 50-2 manat 70 qəpiyə alırlar. Bu isə çəkilən xərcləri belə ödəmir. Fermerlərə fındığın bir kiloqramını ağacdan yığmaq 50 qəpiyə, yerdən yığmaq isə 1 manata başa gəlir. Fermerlərin sözlərinə görə, fındıq bu il dəyərindən çox aşağı qiymətə alındığından, Xaçmazda əhalinin çoxu fındıq bağlarını ləğv edib, yerində gilas bağları salır.**

Fermerlərə süni maneə yaradılmasından danışan **Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** ölkədə fındıq və qoz ləpəsinin, balıq məhsullarından isə kürünün Avropa bazarına çıxarıldığını bildirib.

Onun sözlərinə görə, Qida Təhlükəsizliyi Agentliyi yaranarkən ekoloji təmiz malların Avropa bazarına çıxarılmasına ümid etsək də, təəssüf ki, buna nail olunmayıb: “Bununla belə, biz görürük ki, tonlarla Azərbaycan fındığı Avropa bazarından geri qaytarılır. Bu isə fındığın tərkibində aflatoksin göbələklərinin olması ilə bağlıdır. İstehlakçılara müraciət edərək demək istəyirəm ki, fındıq yeyərkən ləpənin mərkəzində kiçik bir boşluq var, o boşluq əgər sarı rəngdədirsə, deməli, o fındıq ləpəsi aflatoksin göbələkləri ilə zəngindir və insanları zəhərləyə bilər. Biz hər il bununla bağlı bazardan aldığımız fındıqlar üzərində araşdırma aparırıq”.(Bakupost.az)

**Ekspert deyib ki, aparılan profilaktik işlər çərçivəsində bunun qarşısı alınır:** “Lakin Azərbaycanın çox əhəmiyyətli sərvəti olan bu mallar geniş şəkildə istehsal olunmalıdır. Çox təəssüflər olsun ki, bir çox kənd təsərrüfatı mallarının satışında bazarın "alverçilər" deyilən üçüncü subyektləri meydana çıxır. Biz görürük ki, fındıq sektorunda alverçilər artıq təşkil olunmuş MMC-lərdir. Bu MMC-lər öz şərtlərini diqtə edirlər. Fındıq istehsalı ilə məşğul olanlar o qədər də yaxşı vəziyyətdə deyillər. MMC-lərə görə onlar mallarını birbaşa xarici bazara çıxara bilmirlər. Bu, çox əcaib bir haldır. Elə bir siyasət aparılmalıdır ki, fındıq əkənlər öz əməklərinin bəhrəsini görsünlər. Həmin MMC-ləri isə nəfslərinə hakim olmağa çağırıram".

Yada salaq ki, “Yeni Müsavat” da son saylarının birində bu mövzuda geniş araşdırma yazı dərc etmişdi.

❑ **“Yeni Müsavat”**

**60 il ərzində - 1961-2021-ci illərdə dünyada adambaşına düşən gündəlik ət istehlakı təxminən 2 dəfə artıb. Yeniavaz.com xəbər verir ki, bu məlumat Birləşmiş Millətlər Təşkilatının (BMT) Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) tərəfindən açıqlanan hesabata yer alıb.**

Bildirilir ki, 1961-ci ildə dünyada adambaşına düşən gündəlik ət istehlakı 62,8 qram olub. 60 ildən sonra bu göstərici 117,4 qrama yüksəlib.

Azərbaycanda isə ət istehlakı aşağı düşüb. FAO-nun hesabatında qeyd olunur ki, 1961-ci ildə keçmiş SSRİ-də adambaşına düşən gündəlik ət istehlakı 108,5 qram olub. 2021-ci ildə Azərbaycanda adambaşına düşən gündəlik ət istehlakı 101,8 qrama düşüb.

Keçmiş SSRİ ölkələri arasında ət istehlakının ən çox azaldığı ölkə Tacikistan və Azərbaycan olub.

1961-2021-ci illərdə adambaşına düşən gündəlik ət istehlakı keçmiş SSRİ ölkələrində aşağıdakı kimi olub:

# Ölkəmizdə ət yeyənlər niyə azalıb - vegetarianlar artıb, yoxsa?

## Ekspert bunun səbəblərini açıqladı

Onu da bildirək ki, FAO-nun son hesabatına görə, dünyada adambaşına düşən gündəlik ət istehlakının ən aşağı səviyyədə olduğu 5 ölkə bunlar olub:

- Konqo - 8,3 qram
- Brundi - 9,6 qram
- Banqladeş - 11,8 qram
- Madaqasqar - 14,7 qram
- Hindistan - 15,6 qram.

Adambaşına düşən gündəlik ət istehlakının ən yuxarı səviyyədə olduğu 5 ölkə isə bunlar olub:

- Honq Konq - 402,4 qram
- ABŞ - 347,5 qram
- Nauru - 344,3 qram
- Monqolustan - 316,6 qram
- Argentina - 316,4 qram

Bundan başqa, Avropa Birliyində adambaşına düşən gündəlik ət istehlakı 219,6 qram təşkil edir. 60 il əvvəl Avropa Birliyində adambaşına düşən gündəlik ət istehlakı 134 qram olub. Avropa Birliyi ölkələri arasında ən çox ət istehlak edən ölkə isə İspaniya hesab olunur. İspaniyada adambaşına düşən gündəlik ət istehlakı 274,9 qram olub.

Bəs Azərbaycanda ət yeyənlər niyə azalıb - vegeterianlar artıb, yoxsa?

Öncə onu qeyd edək ki, bir çox məşhur ekspertlər və yaxud tanınmışlar çox ət qəbul etməyin sağlamlığa zərərli olduğunu bildirir, hətta mümkün qədər qəbul olunmamasını tövsiyə edir. Məsələn, bir müddət bundan əvvəl dünya şöhrətli alim, kimya üzrə Nobel mükafatı laureatı Əziz Səncər Bakıda olduğu zaman həddindən artıq yemək və çox ət qəbul etməyin sağlamlığa zərərli olduğunu demişdi. Onun bu fikri ilə razılaşanlar da, razılaşmayanlar da oldu. Bəzi qida ekspertləri isə qeyd edir ki, ət insan orqanizmi üçün çox önəmli qidadır, yeyilməsi vacibdir. Onların fikrincə, keyfiyyətli ət istifadə etməyən insanların əksəriyyəti qan azlığından əziyyət çəkir. Ətin tərkibində olan dəmir maddəsi qan azlığının qarşısını alır. Ona görə istifadə etmək lazımdır. Ancaq miqdarından artıq qəbul edilərəksə, bu zaman daha çox zülal qəbul edildiyinə görə böyrəklərdə problemə gətirib çıxara bilər.



**Mövzu ilə bağlı həkim-dietoloq Ləman Süleymanova “Yeni Müsavat”a danışıb:** “Hər qida məhsulunun fəslə görə orqanizmdə mənimsənilməsi prosesi gedir. Çünki orqanizmin qidalara tələbatı fəslə görə dəyişir, fərdi olur. Eləcə də ət məhsulları müxtəlif fəsillərdə orqanizm tərəfindən müxtəlif cür mənimsənilir. Ümumiyyətlə, ət məhsullarının özü müxtəlif olur - ağır ət məhsulları, bura daxildir əsasən dana, quzu əti və daha rahat həzm olunan ət məhsulları, bura daxildir balıq, dəniz məhsulları və quş ətləri, xüsusən də toyuq əti. Hər bir ət məhsullarının da özünə məxsus böyük faydası var.

Adətən ağır ət məhsulları payız-qış, yəni soyuq aylarda orqanizm tərəfindən daha rahat mənimsənilir. Çünki bu dövrdə immunitetin artmasına, ətraf mühitdə olan infeksiyalardan qorunmaq üçün orqanizmin proteinə çox böyük ehtiyacı yaranır. Ət isə enerji, protein mənbəyidir. Həmçinin orqanizmdə qan əmələ gəlməsində, sinir sisteminin fəaliyyətinin möhkəmlənməsində ağır ət məhsulu böyük rol oynayır.

Ağır ət məhsullarının tərkibində çox mühüm, önəmli zülallar, o cümlədən ətə qırmızı rəng verən nitrad və nitridlər var. Bu zülallar insan əzələsində gedən fizioloji prosesləri sürətləndirir. Dəmir ən çox qırmızı ətdən mənimsənilir".

**Həkim-dietoloq ət məhsullarından imtinanın fəsadlarından da danışıb:** “Vegetarianların müxtəlif növləri var - ümumiyyətlə ətdən imtina edənlər və proteinlər, o cümlədən süd, yumurta yeyənlər. Süd və yumurta qəbul edənlərdə o qədər də fəsadlar olmur. Amma ümumiyyətlə, ət və buna bənzər məhsullardan imtina sonradan anemiya, qan azlığı xəstəlikləri yaradır. Bəzən görürsən ki, əvvəllər yüksək vəzifədə olanlar və yaxud böyük iş adamları sonradan vegetarian olub, ət məhsullarından imtina edib, nəticədə onlarda həyat keyfiyyəti aşağı düşüb, fəaliyyəti əvvəlki kimi deyil və sairə”.

**Ləman Süleymanova son vaxtlar Azərbaycanda ət yeyənlərin sayının azalmasını bu cür əsaslandırıb:** “Son dövrlərdə ölkəmizdə ürək-damar, şəkər xəstəliklərindən əziyyət çəkən insanların sayı xeyli artıb. Çox təəssüf ki, bu xəstəlikləri yaşı da gəncləşib. Məsələn, əgər əvvəllər ürək-damar xəstəlikləri 35 yaşdan sonra müşahidə olunurdusa, indi artıq 28-30 yaşdan sonra başlayır. Bəzən görürük ki, 35 yaşlı gənc insanın ürəyinə stend qoyulub. Bunların hamısı düzgün qidalanmamanın nəticəsidir.

Ət məhsulları insan orqanizmi üçün nə qədər zəruridirsə, ondan çox qəbul etmək bir o qədər zərərlidir. Məlum olduğu kimi, yağlı ətlərin tərkibində doymuş yağ və xolesterin çoxdur, ona görə də ürək-damar xəstəliklərindən əziyyət çəkən insanlara bu cür ət pis təsir edə bilər. Yağlı ətdən çox istifadə edənlərin qanında xolesterin artır, qan təzyiqi yüksəlir, qara ciyərdə piylənmə başlayır, mədəaltı vəzin fəaliyyətinə mənfi təsir edir, insulin çoxalır. Genetik olaraq ürək-damar xəstəliklərinə meylli olan insanlar ağır ət məhsullarından uzaqlaşmalıdır. İlk növbədə qoyun ətindən imtina edilməli, ara-sıra dana ətindən istifadə olunmalıdır.

Doğrudur, dana ətinin o qədər zərəri olmur, lakin dana əti də ağır ət növünə aiddir. Biz mütəxəssislər ürək-damar xəstəliklərindən əziyyət çəkən insanlara daha çox dəniz və quş məhsullarından istifadə etməyi tövsiyə edirik. Beləliklə, həkimlər ürək-damar, şəkər xəstəliyindən əziyyət çəkən insanlara ağır ət məhsullarından istifadəni dayandırmağı tövsiyə edir, bunun da nəticəsində dana, quzu ətlərindən istifadə edənlərin sayı azalır. Bir mütəxəssis kimi tövsiyə edirəm ki, heç vaxt rasionunuzdan ət məhsullarını çıxartmayın, sadəcə, ağır ətlərdən uzun müddət istifadə etməyin. Çalışın, orqanizm tərəfində rahat həzm olunan qidalara daha çox üstünlük verilsin. Həmçinin axşam saatlarında ağır ət məhsullarından istifadə məsləhət deyil. Həftədə 1-2 dəfə günorta saatlarında ağır ətlərdən istifadə etmək olar. Digər günlərdə isə daha rahat ətlərə üstünlük vermək məsləhətdir”.

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**

# Dollarla bağlı yeni iddialar

## Bir iqtisadçı deyir bahalaşacaq, o biri deyir yox...



**“Azərbaycanda devalvasiya qaçılmazdır, sadəcə, zaman məsələsidir. Gələn il hökumət bu addıma getməyə məcbur qalacaq. 2005-2015-ci illər arası biz bunu gördük - 10 illik sabit məzənnə rejimi, sonra 3 pilləli devalvasiya.**

Yaxın vaxtlarda isə devalvasiyanın olması real deyil. Ona görə ki, Azərbaycanda manatın məzənnəsi inzibati qaydada tənzimlənir. Dünya bazarlarında, birjalarda gedən proseslərlə manatın heç bir əlaqəsi yoxdur. Hökumətin və Mərkəzi Bankın inzibati tənzimləmə mexanizmi mövcuddur. Ona görə də milli məzənnə hansısa xarici şoklardan, faktorlardan asılı deyil”.

Bu fikirləri Bakupost.az-a yaxın vaxtda devalvasiyanın olacağı ilə bağlı yayılan xəbərlərə münasibət bildirərkən **iqtisadçı ekspert Natiq Cəfərli** deyib.

O qeyd edib ki, gələn ilin sonuna yaxın 15-20 faizlik devalvasiya mümkündür.

**Ekspert əlavə edib ki, ölkədə dollar-manat məzənnəsinin dünya bazarı ilə birbaşa əlaqəsi yoxdur:** “Ona görə də birdən-birə dolların 3 manat olması ehtimalı çox aşağıdır. Çünki bu, Azərbaycan iqtisadiyyatına böyük zərbə vura bilər. Amma bu o demək deyil ki, manatın səviyyəsi daim indiki kimi qalacaq. Bu il olmasa da gələn ilin sonuna yaxın dollar 2 manat civarında, 2 manatdan bir az yuxarı ola bilər. 2024-cü il ərzində isə belə addımın atılacağına inanmıram”.

**İqtisadçı ekspert Pərviz Heydərov isə bildirib ki, beynəlxalq bazarlarda neftin qiyməti büdcədə müəyyən edilmiş köçürmə normasından yüksək olacaq, tədiyyə balansı müsbət saldosunu qoruyacaq, neftin maya dəyəri isə büdcədə müəyyən edilmiş köçürmə normasını keçəcək və buna görə də devalvasiya üçün heç bir obyektiv səbəb yoxdur:** “Hökumət manatı dollara nisbətdə ucuzlaşdırmağa meylli deyil. Azərbaycan valyutasının məzənnəsi inzibati qaydada tənzimlənir, çünki valyuta gəlirləri neft və qaz ixracı seqmentində cəmləşir”.

YENİ MÜSAVAT
N 155 (8528) 30 avqust 2024

# SOCAR-ın Ukraynada "vurulması"nın səbəbi Azərbaycan qazıdır?

## Ekspertin fikrincə, Azərbaycan qazının Rusiya kəmərləri ilə nəqlinin yeganə variantı mübadilə əməliyyatları şəklində ola bilər

**Rusiya prezidenti Vladimir Putinin Bakıya səfərindən sonra Ukraynada Azərbaycanın Milli Neft Şirkəti olan SOCAR-a qarşı aparılan kampaniyanın səbəbləri barədə çoxsaylı versiyalar müzakirə olunmaqdadır. Ukraynada SOCAR-dan yanacaq almamaq çağırışları onu edənlər tərəfindən Putinin Bakıda yüksək səviyyədə qarşılanması ilə əsaslandırılmasına baxmayaraq, prosesdə başqa məqsədlərin olduğu da gündəmə gətirilir.**

Bir sıra mənbələr iddia edir ki, Ukraynada Rusiyanın "Qazprom" şirkəti ilə SOCAR arasında imzalanan anlaşma qıcıq yaradıb. Məlumdur ki, Rusiya qazının Ukrayna ərazisindən Avropaya tranzitinə dair müqavilənin müddəti bu il bitir. Bugünlərdə "Bloomberg"ə danışan Ukrayna Prezidenti Volodimir Zelenski bildirib ki, onun müddəti uzadılmayacaq: "Heç kim Rusiya ilə razılaşmanı davam etdirməyəcək. Bu sondur. Digər şirkətlərdən qaz tranzitinə gəlincə, bəzi avropalı həmkarlarımız istəyərsə, onların xahişlərinə baxa bilərik".

Bundan əvvəl Ukrayna prezidenti "Bloomberg"ə müsahibəsində bildirib ki, Ukrayna "Qazprom" ilə tranzit sazişi başa çatdıqdan sonra Azərbaycan qazının öz ərazisi ilə Aİ-yə nəqli imkanlarını öyrənir. "Bloomberg" qeyd edirdi ki, Azərbaycan qazının Rusiya və Ukrayna üzərindən Avropaya nəqli məsələsi üzrə danışıqlar ilkin mərhələdədir və ilin sonuna, "Qazprom"la tranzit müqaviləsinin müddəti başa çatana və Avropa qışı başlayana qədər qərarlar qəbul olunmaya bilər. Danışıqlara döyüş meydanındakı hadisələr də təsir edə bilər. Bir çox detallar hələ razılaşdırılmayıb və müqavilənin bağlanacağına əminlik yoxdur.

Ukraynanın "Naftoqaz" şirkətinin İdarə Heyətinin rəhbəri Aleksey Çernışov bu məlumatı şərh edərkən bildirib ki, Aİ və Ukrayna bu il Ukrayna-Rusiya tranzit müqaviləsinə xitam verildikdən sonra Avropaya davamlı qaz tədarükünü təmin etmək üçün yollar axtarır, onlardan biri Azərbaycan qazının tədarükü ola bilər. Çernışov SOCAR-dan belə bir təklif olduğunu, lakin hələlik real qərar qəbul olunmadığını iddia edib.

Azərbaycan tərəfi məsələ ilə bağlı hər hansı açıqlama verməyib, yayılan məlumatlara münasibət bildirilməyib. Lakin Prezident İlham Əliyev iyulda Şuşada keçirilən beynəlxalq media-forumda tamam fərqli məlumat açıqlayıb. O bildirib ki, Bakı Rusiya qazının Ukrayna ərazisindən keçməklə Avropaya tranzitini saxlamaq üçün Moskva ilə danışıqlar aparır. Onun sözlərinə görə, Ukrayna və Avropa İttifaqının (Aİ) hakimiyyət orqanları ondan sazişin müddəti başa çatana qədər (2024-cü ilin sonunda)sövdələşmənin bağlanmasına kömək etməyi xahiş ediblər: "Görünür, hər iki tərəf (Aİ və Ukrayna) maraqlıdır, çünki Ukraynanın özünə bu qaz lazımdır. Biz Rusiya ilə danışıqlar prosesindəyik. Və əgər kömək edə bilsək, kömək edəcəyik".




Bundan əlavə, Azərbaycan dövlət başçısı vurğulayıb ki, Rusiya qazının Ukrayna ərazisindən nəqli dayandırılarsa, Avstriya və Slovakiya kimi ölkələr "ciddi problem"lə üzləşəcəklər, çünki qazı əvəz etmək üçün onlar "yüz milyonlarla dollar və ya daha çox" ödəməli olacaqlar.

Bakının öz qazını Rusiya və Ukrayna üzərindən Avropaya nəqli variantı ilə bağlı hər hansı məlumat açıqlamamasına baxmayaraq, Rusiya mətbuatında məsələ gündəmdən düşmür. Müxtəlif ekspertlər diqqəti Azərbaycanın Ukrayna üzərindən Rusiyanın ötürdüyü qədər - ildə 15 milyard kubmetrə yaxın qaz nəql etmək imkanının olmamasına yönəldirlər. **Rusiyanın Milli Enerji Təhlükəsizliyi Fondunun analitiki İqor Yuşkov**un fikrincə, Azərbaycan qazının tədarükü üçün belə bir sxemin yaradılması ideyası başadüşüləndir - Avropa siyasətçiləri, nəhayət, heç olmasa, Rusiya qazından tamamilə imtina etdiklərini bildirmək istəyirlər: "Yəni bu ideya sırf siyasi xarakter daşıyır, çünki Azərbaycan qazı ilə bağlı heç bir şikayət yoxdur və Rusiyadan gələn hər şey guya zəhərlidir", - deyə o, Yuşkov "Sputnik Azərbaycan"a bildirib.

**Ekspert qeyd edib ki, qazı dövlət yox, kommersiya şirkətləri satır. Və əgər Aİ-nin Azərbaycan qazını yeni marşrutla almaq istədiyi bildirilirsə, o zaman müvafiq kommersiya müqaviləsi imzalanmalıdır:** "Bu halda "Qazprom"la köhnə müqavilələrlə nə etməli? Çünki köhnə müqavilə ləğv edilərsə, Avropa şirkətləri on milyardlarla dollara şatacaq cərimə ödəməlidirlər, buna razıdırlarmı?"

**Bundan əlavə, o qeyd edib ki, bu layihənin icra planı aydın deyil. Beləliklə, Yuşkov əlavə edib ki, Azərbaycanın Avropa bazarında Rusiya tədarükünü əvəz etmək üçün gücü yoxdur:** "Azərbaycan ümumən öz yolu ilə gedir, qaz kəməri çəkib, "Şahdəniz-2" yatağının işlənməsini həyata keçirib, oradan artıq qaz Avropaya nəql olunur: 8 milyard kubmetr İtaliyaya, 1 milyard kubmetr - Yunanıstana və daha 1 milyard kubmetr - Bolqarıstana. Bundan əlavə, bir sıra digər Balkan ölkələrinə də vaxtaşırı qaz verilir. Lakin hazırda Azərbaycanın hasilatı qısa müddətdə 15 milyard kubmetr artırmaq imkanı yoxdur".

**Ekspertin fikrincə, Azərbaycan qazının Rusiya kəmərləri ilə nəqlinin yeganə variantı mübadilə əməliyyatları şəklində ola bilər:** "Yəni kağız üzərində belə görünəcək: "Qazprom" guya Azərbaycana 30 milyard kubmetr qaz verir, eyni zamanda respublika eyni həcmdə qazı Rusiya və Ukrayna vasitəsilə Avropaya ixrac edir. Lakin reallıqda "Qazprom" Avropaya qaz vurub və onu vurmağa davam edəcək. Ukrayna və Avropa ölkələri sərhədində rəsmi satıcı Məsələn, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) olacaq. Bu halda hər şey olduğu kimi qalacaq, yalnız SOCAR bir növ vasitəçi kimi çıxış edəcək və bu vasitəçilik üçün Azərbaycan Dövlət Neft Şirkətinə haqq ödənməli olacaq, ona görə də sonda avropalılar üçün qiymət artacaq. Rusiya bu sxemdən əziyyət çəkməyəcək"

Aİ və Kiyev Ukrayna ərazisindən qaz nəqlinin dayanmamasında maraqlıdırlar: həm iqtisadi, həm də infrastruktur baxımından. Belə ki, Rusiya qazının tranzitindən Ukrayna ildə 1,3-1.4 milyard dollar civarında gəlir əldə edir. Eyni zamanda ölkənin ərazisində dünyada olmayan qədər inkişaf etmiş qaz nəqli infrastrukturu var. Bu infrastruktur boş dayanarsa, tezliklə köhnəlməyə məruz qalacaq. Nəhayət, Rusiya qazının nəqlinin dayanmasından sonra Moskvanın bu infrastrukturu hədəf alacağı təhlükəsi kifayət qədər realdır. Nəzərə almaq lazımdır ki, Rusiya Avropanın qaz depolamaq imkanlarını məhdudlaşdırmaq üçün artıq bir neçə dəfə ən böyük yeraltı anbarlara malik Ukraynada bu infrastruktura ardıcıl zərbələr endirib. Ən son zərbə bir neçə gün əvvəl Ukraynanın qərbindəki tutumu 17 milyard kubmetr olan yeraltı anbara endirilib. Bununla Rusiya Avropanın orada qaz toplamasının qarşısını almağa çalışır ki, dekabrda Ukrayna ərazisi ilə öz qazının nəqlinə hazırlıq səviyyəsini aşağı salsın. Aİ Ukraynadan kənardakı anbarları 93 faizə yaxın doldurub. Ötən il Avropa şirkətləri Ukrayna anbarlarına 2 milyard kubmetrdən çox qaz vurmuşdular. İndi Rusiya buna imkan verməməyə çalışır ki, dekabrda müqavilə müddəti bitəndə Avropanın ehtiyatları qış mövsümündən çıxmaq üçün yetərli olmasın. Bu cür siyasət yürüdən Moskvanın dekabrın 31-dən sonra Ukraynanın qaz nəqli sistemini sıradan çıxarmağa çalışmayacağı qeyri-realdır. Buna görə də Brüssel Bakının nüfuzundan və qaz potensialından istifadə etməklə bu perspektivi önləməyə çalışır. Bunun üçün hətta kiçik həcmdə də olsa Azərbaycan qazının Rusiya və Ukrayna üzərindən nəqlinə nail olmaq yetərlidir.

Xatırladaq ki, 2022-ci ilin iyulunda Avropa Komissiyası Azərbaycanla Avropaya qaz nəqlinin 20 milyard kubmetrə qədər artırılmasına dair anlaşma memorandumu imzalayıb. Bu hadisədən sonra TAP kəmərinin nəql gücünün 20 milyard kubmetrə çatdırılması üçün müzakirələr, danışıqlar başlayıb. Lakin bu iş üçün tələb olunan investisiyaların yatırılması məsələsində Aİ ilə Azərbaycan arasında fikir ayrılığı yaranıb. Belə ki, Aİ qalıq yanacaq olan qazla bağlı layihələrə sərmayə yatırılmamasını nəzərdə tutan akta istinad etməklə TAP-ın genişləndirilməsi prosesinə hər hansı sərmayə qoyuluşu etməmək mövqeyini tutur. Bundan əlavə, Avropa mənşəli maliyyə qurumlarına da belə investisiyalar qadağan olunub. Digər tərəfdən, Aİ 2040-cı ildən etibarən qalıq yanacaq hesab etdiyi təbii qazın istehlakından da imtina etməyi hədəfləyir. Bütün bunlar Azərbaycan tərəfindən haqlı tənqid olunur. Rəsmi Bakı infrastrukturu genişləndirmək üçün bütün xərcləri öz üzərinə götürmək niyyətində olmadığını dəfələrlə **Prezident İlham Əliyev** səviyyəsində açıqlayıb. Elə Şuşadakı çıxışında o, bu məsələ ilə bağlı kifayət qədər sərt mövqe sərgiləyib: "Onlar istəyirlər ki, biz Cənub Qaz Dəhlizini 16 milyard kubmetrdən 32 milyard kubmetrə qədər genişləndirək. Söhbət TANAP-dan gedir və TAP-ı 10 milyarddan 20 milyard kubmetrə çatdıraq. Biz oraya milyardlarla pul yatırmalıyıq".

**Dövlət başçısı onu da əlavə edib ki, Cənub Qaz Dəhlizinə yatırılan sərmayənin hələ də tam mənfəətini götürməmişik:** "Bizim neft-qaz sahəsindən əldə etdiyimiz gəlir hələ də bu borcun ödənilməsinə yönəlib. Onlar gözləyirlər ki, biz oraya milyardlarla vəsait yatıraq və eyni zamanda deyirlər ki, 10 ildən sonra Avropa İttifaqının qaza ehtiyacı yoxdur. Yəni biz ağılsızıq ki, onların ehtiyacı olmadığı qaza 10 milyardlarla vəsait qoyaq?"

Baş verənlər göstərir ki, Aİ Azərbaycanı öz qazının bir hissəsini Rusiya və Ukrayna üzərindən nəqlinə razı salmağa çalışır. Ukraynada SOCAR-la bağlı çağırışlar da buna hesablanmış kampaniya ola bilər: Bakıdan müsbət cavab almaq üçün. Bu təzyiq və təsirlərin hansı nəticə verəcəyini yəqin ki, yaxın zamanlarda biləcəyik. Çünki Aİ-nin vaxtı elə də çox deyil. Dekabra qədər dəqiqləşdirilməli olan məsələlər çoxdur...

❑ **Dünya SAKİT,
"Yeni Müsavat"**

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# "Bakıya axının qarşısını almaq üçün yeni şəhər salınsın"- təklif

### "Azərbaycanda orta hesabla ildə bir yeni, tarixə düşə biləcək şəhər salına bilər"

**Dövlət Statistika Komitəsinin məlumatında qeyd edilir ki, əhalinin 54,5 faizini şəhər, 45,5 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir. Bu ilin əvvəlinə əhalinin 4,6 faizi Naxçıvan Muxtar Respublikasında, 23 faizi Bakı şəhərində, 9,2 faizi Lənkəran-Astara, 8,6 faizi Abşeron-Xızı, 7,3 faizi Qarabağ, 7,1 faizi Mərkəzi Aran, 6,7 faizi Qazax-Tovuz, 6,1 faizi Şəki-Zaqatala, 5,9 faizi Gəncə-Daşkəsən, 5,4 faizi Quba-Xaçmaz, 5,1 faizi Mil-Muğan, 4,9 faizi Şirvan-Salyan, 3,1 faizi Dağlıq Şirvan, 3 faizi Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşayıb.**



Hər il rayonlardan gəlib paytaxtda məskunlaşanların sayı çoxalır. Kimisi bunun bölgələrdə işsizlik səviyyəsinin yüksək olmasında, bəziləri də şəhərdə sosial həyatın daha rəngarəng olmasını dilə gətirir.

Ekspertlər hesab edir ki, paytaxta axının qarşısını almaq üçün Bakı ilə regionlar arasında qeyri-bərabər iqtisadi inkişafın qarşısı alınmalıdır. Regionların tarazlı və dinamik inkişafı təmin edilməlidir. Rayonlarda daha çox istehsal və emal müəssisələrinin açılmasına şərait yaradılmalıdır. Həmçinin kənd təsərrüfatı ilə məşğul olan insanlar üçün stimullaşdırıcı tədbirlərə, güzəştli kreditlərə böyük ehtiyac var. Bütün bu məsələlər öz həllini tapsa, bölgələrdən paytaxta axın da azalar.

**Sabiq maliyyə naziri, professor Saleh Məmmədov** "Yeni Müsavat"a deyib ki, hazırda Azərbaycanın ən ciddi və yaxın gələcəkdə həll olunması zəruri olan problemlərindən biri şəhərsalma və məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi məsələsidir: "Bu problem Azərbaycanın bugünkü imkanları daxilində lazımi səviyyədə həll olunmur. Doğrudur, son illərdə qəbul olunmuş və müvəffəqiyyətlə yerinə yetirilən regionların inkişafı proqramları bu istiqamətdə bəlli irəliləyişlərə gətirib, amma bu, Azərbaycanın bugünkü inkişaf sürətinə cavab vermir. 90-cı illərin başlanğıcında məqalələrimin birində yazmışdım ki, Azərbaycanda orta hesabla ildə bir yeni şəhər salına bilər: tarixə düşə biləcək memarlıq inciləri ilə zənginləşdirilmiş bir şəhər. Amma müstəqillik illərindən bəri hələ bir dənə də olsun yeni şəhər salınmayıb. Problem üzrə çatışmazlıqlar isə bunlardır. Birincisi, məhsuldar qüvvələrin qeyri-bərabər yerləşdirilməsi: bu gün ölkənin ümumi məhsulunun təqribən beşdə dördü Abşeron iqtisadi rayonunda yerləşdirilib ki, bu da əhalinin əsas hissəsinin Bakıda cəmləşməsinə gətirib çıxarıb, paytaxtın sürətli inkişafına və gözəlləşməsinə baxmayaraq, burada yaşayış dözülməz hala gəlib. Belə davam etsə, yaxın zamanlarda, ümumiyyətlə, Bakıda vəziyyət gərgin olacaq.

İkincisi, əvvəldə qeyd etdiyim kimi, müstəqillik illərində ölkədə yeni şəhər salınmamışdı. Kəndlərin, rayonların inkişafında bir sıra tədbirlər görülməsinə baxmayaraq ciddi irəliləyiş nəzərə çarpmır. Tarixi faktlara da əsaslansaq, bir çox liderlər tarixə yeni salınan şəhərlərlə, memarlıq əsərləri ilə düşüblər. Bizdə də belə şəhərlərin salınması üçün həm zərurət yaranıb, həm də maddi imkanlarımız yetərincədir.

Bundan əlavə, məhsuldar qüvvələrin qeyri-bərabər yerləşdirilməsi yalnız paytaxtın şişirdilməsi ilə nəticələnmir, həm də digər regionların inkişafdan qalması və uyğun olaraq o bölgələrin böyük ehtiyatlarının istifadəsiz qalmasına gətirib çıxarır.

Buna görə də bu istiqamətdə ciddi işlər görülməsi məqsədəuyğundur. Orta bir şəhərin salınması təqribən 5 milyard dollar vəsait tələb edir, bundan da düzgün təşkil olunduğu halda yalnız 1 milyardı dövlətin payına düşə bilər. Qalanını özəl sərmayənin cəlb olunması ilə səfərbər etmək olar. Həm qədim şəhərlərin bərpası və həm də yeni məskənlərin salınması bu işdə düzgün yol hesab oluna bilər. Misal üçün, Bərdə, Qobustan, Oğuz kimi şəhərlərin yenidən salınması gözəl nəticə verə bilərdi. Bütün dəniz boyu Nabrandan Astaraya qədər sahildə onlarla şəhərin yeri var və bu həm də turizmin sürətlə inkişafını təmin edə bilər. Eyni zamanda dağ kurortlarının inkişafı ilə uyğunlaşdırılaraq dağlıq bölgələrdə gözəl şəhərlər salmaq olar. Hər ildə bir şəhər prinsipi ilə ölkənin müxtəlif bölgələrində şəhərlər 21-ci əsrdən Azərbaycan tarixinə ciddi töhfə ola bilərdi. Hər halda, dünya azərbaycanlılarının cəlb olunması, vətəndaşlığı olmayanlara vətəndaşlıq verməklə işi çox sürətləndirmək olar. Dünya azərbaycanlılarında böyük kapital və bir çox digər imkanlar var".

**Sosial Tədqiqatlar Mərkəzinin (STM) baş məsləhətçisi Şəhla Cəlilzadə dedi ki, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası nəticəsində hazırda respublikamızın müxtəlif rayonlarında geniş abadlıq-quruculuq işləri aparılır:** "Həmçinin sosial və iqtisadi infrastruktur layihələri həyata keçirilir. Vurğulanmalıdır ki, regionların inkişaf strategiyası sənədlərinin qəbulu ilə ardıcıl icrası arasında düz mütənasibliyi qorumaq mühüm əhəmiyyət kəsb edir. Sənədlərin icrası üzrə uğurlu nəticənin əldə olunması burada qeyd edilən istiqamətlərin müvafiq sahə üzrə məsul dövlət qurumları tərəfindən doğru-düzgün icra edilib-edilməməsi ilə birbaşa bağlıdır".

Azərbaycan Respublikasının Mediənın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Afaq MİRAYİQ

# Avropa Məhkəməsinin Hüseyn Abdullayev qərarına reaksiya

### Hüquqşünas: "Bu cinayət işinə görə Azərbaycana təsir göstərməyə çalışırlar"



**Avropa İnsan Hüquqları Məhkəməsi Hüseyn Abdullayevlə bağlı onun vəkilinin müraciətinə əsasən qərar verib. Bu barədə onun vəkili və Avropa İnsan Hüquqları Məhkəməsində nümayəndəsi Cavad Cavadov Gunundesi.info-ya bildirib.**

Onun sözlərinə görə, Avropa İnsan Hüquqları Məhkəməsi 22631/24 saylı iş üzrə, 27 avqust 2024-cü ildə Məhkəmə Qaydalarının 39-cu maddəsinə Hüseyn Abdullayevlə bağlı qərar qəbul edib:

"Qərara əsasən, Azərbaycan hökuməti onunla bağlı zəruri və əsaslı tibbi müayinələr aparılması, buna uyğun ambulator və ya stasionar müalicə aparılması, onun sağlamlıq durumu ilə bağlı mütəmadi olaraq məhkəməyə məlumat verməlidir.

Eyni zamanda Məhkəmə Qaydalarının 41-ci maddəsinə əsasən, onun işinə prioritet qaydada baxılması qərara alınmışdır".

**Avropa İnsan Hüquqları Məhkəməsinin bu qərarını şərh edən Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin rəhbəri Xəyal Beşirov "Yeni Müsavat"a bildirdi ki, Hüseyn Abdullayevlə bağlı məsələ bir müddətdir gündəmdədir:** "6 illik cəzasını çəkdikdən sonra onun barəsində yeni cinayət işi başlanıb. Vəkilləri də onun barəsində yeni cinayət işi və həbs müddətinin uzadılması ilə bağlı Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət ünvanlayıblar. Məhz bu müraciətlə bağlı Avropa İnsan Hüquqları Məhkəməsində Hüseyn Abdullayevin vəkillərinin müraciətinə baxılması prosesi başlayıb. Səhv etmirəmsə, Hüseyn Abdullayevin üç, ya da dörd vəkili var. Vəkillər onun müalicə olunmasına şərait yaradılması üçün yerli məhkəməyə müraciət ediblər. Məhkəmə həmin vəsatətləri mətbuatdan bizə məlum olduğu qədər təmin etmişdi. Bununla bağlı vəkillərinin mövqeyi də var idi. Amma görünür ki, vəkilləri paralel şəkildə həm də Avropa İnsan Hüquqları Məhkəməsinə də müraciət ediblər. Nəzərə alaq ki, Azərbaycan Avropa Şurasının üzvüdür və Avropa İnsan Hüquqları Məhkəməsinin yurisdiksiyasında fəaliyyət göstərir. Bu səbəbdən adıçəkilən məhkəməyə insan hüquq və azadlıqları ilə bağlı konvensiyanın tələblərinin pozulması ilə bağlı müraciət olunub. Yəni verilən məlumatlardan bu görünür. Avropa İnsan Hüquqları Məhkəməsində şikayətlərə baxılması reqlamenti var. Bu sənədin 41-ci maddəsinə əsasən, Hüseyn Abdullayevin işinə prioritet qaydada baxılması qərara alınıb. Sadə dillə desək, işə növbədənkənar baxılması qərarı verilib. Avropa Şurasının qurumlarından biri Avropa İnsan Hüquqları Məhkəməsi, digəri Avropa Şurası Parlament Assambleyasıdır. Nəzərə alaq ki, AŞ PA Avropa Şurasının siyasətini müəyyən edən əsas qurumlardan biridir. Onu da nəzərə alaq ki, bu ilin yanvarında AŞ PA-da Azərbaycan nümayəndə heyətinin mandatı müvəqqəti olaraq dondurulub. Azərbaycan da buna cavab olaraq prosesdə iştirakdan imtina edib. Yəni dediyim odur ki, Azərbaycanla Avropa Şurası arasında belə bir problem var. Belə vəziyyət isə şübhəsiz, Avropa İnsan Hüquqlar Məhkəməsinin də Azərbaycana münasibətinə, qərarlarına təsir göstərir".

**Hüquqşünas qeyd etdi ki, Azərbaycana Hüseyn Avdullayev işi ilə bağlı təsir göstərməyə çalışırlar:** "Hüseyn Abdullayev Azərbaycan vətəndaşıdır və onun hüquqlarının qorunması ilə bağlı Azərbaycan tərəfi özü maraqlıdır. 6 il ərzində cəzaçəkmə müəssisəsində onun həyatı üçün hər hansı təhlükə olmayıb. İndi nə oldu qəfildən təhlükə yarandığı söhbəti ortaya atıldı? Deməli, burada əsas hədəf Azərbaycanı bəhanə ilə sıxışdırmaqdır. Avropa Şurasının orqanı olan həmin məhkəmə instansiyası Hüseyn Abdullayevin məsələsinə belə təcili qaydada baxmaq qərarını məhz Azərbaycana təsir göstərmək üçün verib. Burada əslində Hüseyn Abdullayevin qayğısına qalmaq məqsədi güdülmür. Əslində onları heç də Azərbaycan vətəndaşının, o cümlədən Hüseyn Abdullayevin sağlamlığı, həyatı maraqlandırmır".

**Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 155 (8528) 30 avqust 2024

# Taksi xidmətində yeni fırıldaq

## Qiymətlərdə sürücü və müştəri anlaşılmazlığı...




**Azərbaycanda fəaliyyət göstərən "Bolt" taksi şirkətindən narazılıqlar artıb. Buna səbəb isə tariflərlə bağlı ziddiyyətin ortaya çıxmasıdır. Müştərilər bildirir ki, onların sistemində göstərilən gediş haqqı qiyməti ilə sürücülərin sistemindəki qiymətlər eyni deyil.**

Qeyd edilir ki, müştəri sifariş verəndə qiymət 5 manat göstərirsə, taksiyə əyləşəndən sonra sürücü 7 manat yazdığını deyir. Və yaxud da şirkət vətəndaşa endirim edirsə, bu, sürücünün sistemində görünmür. Son günlər belə hallar çoxalıb. Amma bunun nə ilə əlaqəli olduğu deyilmir. Müştərilər bunu şirkətin fırıldağı kimi qəbul edirlər. Sürücülər də etiraf edirlər ki, "Bolt" belə problemlər yaşadır və nəticədə sürücü ilə müştəri üz-göz olur.

Ümumiyyətlə, Bakıda taksilərdə gediş haqlarının qiyməti artsa da, keyfiyyətdə irəliləyiş yoxdur. Ötən aylar qısa məsafə üçün iki-üç manat tələb olunurdusa, indi eyni məsafəyə görə ikiqat ödəniş olunur.

Lakin problemlər bununla bitmir, bəzən sürücülər kartla edilmiş sifarişləri ləğv edir, bəzənsə tətbiqdə yeni avtomobilin gələcəyi göstərilsə də, göndərilən maşın köhnə model olur.

"Bolt" xidmətinin Azərbaycandakı fəaliyyəti 2017-ci ildən başlanıb. Hazırda Azərbaycanın 11 şəhərində - Bakı, Gəncə, Mingəçevir, Qəbələ, Şəmkir, Sumqayıt, Şəki, Şirvan, Yevlax, Quba və Lənkəranda fəaliyyət göstərir.

"Bolt"la çoxlu sayda sürücü əməkdaşlıq edir, amma onlar "Bolt"un işçiləri deyil. Aktiv sürücülərin dəqiq sayını demək mümkün deyil, çünki onların bir hissəsi daimi işləmədiyi halda, bir çoxu öz "Bolt" hesabından hərdənbir işləmək üçün istifadə edir.

**Nəqliyyat üzrə ekspert Elməddin Muradlı deyir ki, taksilərdə qiymətlərin tənzimlənməsi aşağı hədlə bağlı olub. Yəni başlanğıc qiymət 2 manat 50 qəpik təyin edildi**: "Ondan yuxarı həddi daşıyıcı şirkətlər, operatorlar özləri müəyyənləşdirir. Bunu müştəri sifariş verəndə aydın şəkildə görür. Ünvana gedib çatanda qiymət dəyişirsə, bu, artıq qanun pozuntusudur. Çünki ola bilsin şəxs ünvanı verir, getdiyi yerdən əlavə məsafə sürdürür, bu ayrı məsələdir. Sürücü onun qeydiyyatını aparırsa, qiymətdə artım ola bilər. Amma gediş haqqı vətəndaş və sürücüdə fərqli göstərilə bilməz. Bu yalnız sürücünün şifahi şəkildə dediyi formada ola bilər. Tutaq ki, gediş haqqı 5 manat yazıb, sürücü deyir ki, o bu məsafəyə 7 manata aparacaq. İki manat da əlavə alır. Təcrübədə belə hallar olub.

Ola bilsin ki, şirkət müştəriyə endirim edib, amma bu, sürücünün sistemində görünmür. Belə halda sürücü şirkətə xəbər verməlidir ki, nəzərə alıb düzəltsinlər.

Sifariş yerinə köhnə maşının gətirilməsinə gəlincə isə bununla bağlı ciddi problemlər var. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi də sürücülərə müraciət etdi ki, bu hallara son qoysunlar. Vətəndaşlara da müraciət olundu ki, belə halda 141 qaynar xəttinə məlumat versinlər. Bununla bağlı operatorları 20 min manatdan 40 min manata qədər cərimə gözləyir. Bu cərimələrin qarşısını almaq üçün "Bolt", "Uber" kimi şirkətlər kampaniyalara başlayıblar. Deyirlər ki, əgər sizə təzə maşın təyin olunubsa, lakin real olaraq köhnə maşın gəlirsə, o halda onlara məlumat verilsin. Bunu edən vətəndaşa hədiyyə vəd edirlər. Yəni növbəti gedişlərdə endirim və s. Şirkətlər bu kimi hallarda vətəndaşlardan kömək istəyir. Vətəndaşlar da bu məsələdə bir az fəal olmalıdırlar.

Sosial şəbəkələrdə narazılıq etsələr də, rəsmi şəkildə şikayət etmək istəmirlər. Deyirlər ki, kiminsə çörəyinə bais olmaq istəmirlər. Həm xidmətdən narazılıq edirlər, həm də şikayət etmək istəmirlər.

Dövlət bunun hamısına nəzarət edə bilmir. Vətəndaşın müdaxiləsi vacibdir. Çünki sürücülər təzə maşınla qeydiyyatdan keçirlər, köhnə ilə xidmət edirlər. Belə sürücülər arxayındır ki, 5-10 manat qazanacaqlar. Amma bunların məsələsi üzə çıxanda onların avtomobilləri sistemdən silinir, özlərinin də kimlikləri barədə məlumat toplanılır ki, gələcəkdə taksi sürücüsü ola bilməsinlər".

**Ekspert kartla edilən taksi sifarişlərinin sürücülər tərəfindən ləğv edilməsindən də danışıb:** "Bunu çox vaxt sübut etmək olmur. Sürücülər belə əsaslandırırlar ki, uzaqdadırlar və gəlib çata bilməyəcəklər. Yəni səbəb sırf kart olsa, vətəndaş şikayət etməlidir. Sürücülər bilir ki, qanunda boşluq yoxdur. Sadəcə olaraq, dövlət humanistlik göstərir və onların üzərinə getmir. Vaxt gələcək onlar hər bir xırda səhvə görə bunun cəzasını çəkəcəklər, az qalıb".

**E.Muradlının sözlərinə görə, biznes sahəsi açıqdır və istənilən sahibkar taksi ilə bağlı sistemi qurub, bu işi görə bilər:** "Amma təəssüf ki, yerli taksi şirkətləri mükəmməl sistem qura bilmirlər. "Bolt" və "Uber" isə dəqiq və kefiyyətli sistem qura biliblər. Yerli şirkətlər onlarla ayaqlaşa bilmir".

Mövzu ilə bağlı "Bolt" şirkətinə sorğu ünvanlasaq da, cavab ala bilmədik.

❑ **Şahanə RƏHİMLİ,**
**"Yeni Müsavat"**

## Azərbaycanda rusdilli təhsilə maraq niyə artır?

**Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri: "Yəqin ki, rus bölməsində təhsilə marağın olmasının başqa səbəbləri də var". Azərbaycanda rusdilli təhsilə maraq hər zaman yüksək olub. Bəzi vətəndaşlar övladlarına rus dilində təhsil verməyi üstün tuturlar.**



Müşahidələr göstərir ki, son illər ölkəmizdə xüsusilə gənc valideynlər övladlarını bu istiqamətə yönləndirir. İşin maraqlı tərəfi odur ki, həmin valideynlərin əksəriyyəti bu dili bilməsə də, övladlarının rusdilli olmasını arzulayır.

**Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri Hikmət Əlizadə** mövzu ilə bağlı Modern.az-la həmsöhbət olub. Onun sözlərinə görə, keçmiş SSRİ məkanında yaşadığımız dövrdə yeni nəslin rus dilində təhsil almasının üstünlükləri var idi:

"Bu gün belə üstünlüklər yoxdur. Amma rus dilində təhsilə maraq azalmır. Bunu adətən valideynlərin köhnə stereotiplərə "sadiq" qalmaları ilə əlaqələndirirlər. Yəqin ki, bu amil yox deyil, amma düşünürəm ki, rus dilində təhsilə marağın azalmamasını təkcə bununla əlaqələndirmək səhv olardı. Mən bu sahədə tədqiqat aparmamışam, amma ayrı-ayrı valideynlərlə fərdi görüşlərdə etdiyim söhbətlərə əsasən daha bir neçə səbəbin olduğunu vurğulaya bilərəm.

Bir çox ölkələrdə işıq üzü görən fundamental monoqrafiyalar və kitablar rus dilinə tərcümə olunur. Bu SSRİ dövründə də belə idi, indi də belədir. Rusiya böyük ölkədir, orada kitablar böyük tirajla nəşr edildiyi üçün bu işi həyata keçirmək naşirlər üçün maraqlıdır. Övladlarının gələcəkdə elm yolu ilə getməsini arzulayan valideynlərin bir qismi bu səbəbə görə rus dilində təhsilə önəm verirlər".

**H.Əlizadə qeyd edib ki, müasir dövrdə ingilis dilinin öyrənilməsi daha aktualdır:** "Yəqin diqqət etmisiniz ki, valideynlərin bir qismi hələ aşağı siniflərdə təhsil alarkən ingilis dilini öyrənməsi üçün övladlarının müxtəlif dərnəklərdə iştirakını təmin edirlər. Bu meyl günü-gündən öz əhatə dairəsini genişləndirir. Rus dilinin qrammatikasının bəzi məqamları ingilis dilinin qrammatikası ilə üst-üstə düşür. Valideynlərin bir qismi elə düşünür ki, uşaq rus dilinə yiyələnsə, ingilis dilini daha asan mənimsəyə bilər. Bu səbəbdən övladlarının rus bölməsində təhsilinə üstünlük verirlər.

Valideynlərin bir qismi isə övladlarının bir neçə dil bilməsini arzulayır. Məktəblərdə rus bölmələri fəaliyyət göstərdiyindən burada təhsil alaraq onu öyrənməyə imkan var. Bu zaman heç bir əlavə iş görmədən (dərsdən sonra uşaqlarını müəllim yanına aparmadan və vaxt itirmədən) övladlarının rus dilini incəliklərinə qədər mənimsəyəcəklərinə əmindirlər. Sonrakı illərdə isə uşaqların ikinci, üçüncü dili öyrənilməsi üçün şərait yaradırlar.

Dediyim səbəblər az sayda insanlarla etdiyim söhbətlərdə gəldiyim nəticələrdir. Yəqin ki, rus bölməsində təhsilə marağın olmasının başqa səbəbləri də var. Hazırda bu marağın artıb-artmaması ilə bağlı məndə statistik məlumatlar yoxdur. Amma qeyd etdiyim səbəblər ola bilsin ki, marağın artmasını şərtləndirsin. Bununla bağlı valideynlərə demək istərdim ki, hər bir ölkədə yeni nəslin öz dilində təhsil almaları onların həm əqli inkişafı, həm də milli-mənəvi dəyərləri mənimsəməsi baxımından böyük əhəmiyyət kəsb edir. Dünyanın bir çox alimləri ən azı ibtidai sinifdə uşaqların ana dilində təhsil almalarını zəruri sayırlar. İbtidai sinfi bitirdikdən sonra başqa dildə təhsili davam etdirmək mümkündür".

Xatırladaq ki, Rusiya prezidenti Vladimir Putin ötən həftə Bakıda səfərdə olarkən Azərbaycanda rus dilinə göstərdiyi diqqətə və bu dilin tədris olunduğu məktəblərin işinə görə minnətdarlıq etmişdi.

O, Azərbaycandakı 300 orta məktəbdə rusdilli bölmənin, eləcə də Rusiyanın aparıcı ali məktəblərinin filiallarının fəaliyyət göstərdiyini qeyd etmişdi.

## Bakıda 3 velosipedçi rejissoru vurub qaçdı

**Daxili İşlər Nazirliyi (DİN) Bakıda rejissor Elvin Adıgözəlovun xəsarət alması ilə nəticələnən hadisə barədə məlumat yayıb. DİN-in mətbuat xidmətindən Oxu.az-a avqustun 25-də Nəsimi rayonu ərazisində baş verən yol-nəqliyyat hadisəsi ilə bağlı polis orqanında araşdırma aparıldığı bildirilib.**


Elvin Adıgözəlov

"Hadisəni törədən şəxslərin müəyyən olunması istiqamətində tədbirlər görülür", - məlumatda vurğulanıb.

Qeyd edək ki, 1news.az saytı rejissorun Bakının mərkəzində 3 velosipedçi tərəfindən vurulduğunu yazıb. Bildirilib ki, hadisə avqustun 25-də axşam saatlarında Ü.Hacıbəyli adına Musiqi Akademiyasının yaxınlığındakı avtobus dayanacağında baş verib. Hadisə nəticəsində Elvinin qolu sınıb, dizləri əzilib və çoxsaylı xəsarətlər alıb.

# YENİ MÜSAVAT

Son səhifə

N 155 (8528) 30 avqust 2024

Avqust




## Özbəkistanda yağış sularını yığacaqlar

**Özbəkistanda yağış suyunun yığılması və saxlanmasının həm ekoloji, həm də iqtisadi faydaları olacağını düşünürlər.**

Musavat.com Nuz.uz portalına istinadla xəbər verir ki, bu, xüsusən də su qıtlığı olan bölgələrdə daha effektiv olacaq. Düzgün yığılmış və təmizlənmiş yağış suyu belə şəraitdə etibarlı mənbə kimi xidmət edə bilər.

Özbəkistanın Ekologiya Nazirliyi bildirir ki, su ehtiyatlarını səmərəli idarə etmək üçün suyun keyfiyyətini, onun rasional bölüşdürülməsini və istifadəsinə nəzarəti nəzərə almaq lazımdır. Yağış suyunun keyfiyyəti urbanizasiyadan, çirkləndiricilərdən və transsərhəd çirklənmədən asılıdır. Təbii yağış suyu təxminən 5,7 pH ilə bir qədər turşudur. Bununla belə, atmosferdə karbon qazı, azot dioksidi və kükürd kimi həll olunan turşuların yüksək səviyyədə olduğu ərazilərdə (nəqliyyat, sənaye və qalıq yanacaqların yanması nəticəsində) yağış suyunun turşuluğu arta bilər.

Tədqiqat məlumatları göstərir ki, nümunələrdə yağış suyunun turşuluğu 4-12 mq/l arasında dəyişir. Orta dəyər 6 mq/l-dir və bu, ondan müxtəlif ehtiyaclar üçün istifadə etməyə imkan verir.

Avstraliya, Hindistan, Braziliya, Sinqapur və ABŞ kimi ölkələr uzun müddətdir yağış suyunun yığılması və istifadə üsullarını tətbiq edirlər. Bu ölkələrdə bir çox ev təsərrüfatları, müəssisələr və dövlət qurumları yağış suyundan istifadə edir.

Yağış sularından suvarma, qidalanma, balıqçılıq, heyvandarlıq, məişət, üzgüçülük və tikinti üçün istifadə oluna bilər. Süzgəcdən keçirildikdən və təmizləndikdən sonra soyutma sistemlərində, sənaye proseslərində, kanalizasiyada, camaşırxana və təmizlikdə istifadə oluna bilər və su ehtiyatlarına qənaət etməyə kömək edir.

Özbəkistanın Ekologiya Nazirliyinin informasiya xidməti qeyd edir ki, bundan əlavə, quraqlıq dövründə yağış sularının yığılması kənd təsərrüfatı heyvanları üçün əlavə su mənbəyi yaradır.

# Kök insanlar bu xəstəliyə yoluxmur



**Yeni araşdırmalar göstərib ki, kök insanların beyni daha gec yaşlanır. Bu isə o deməkdir ki, onların Alzheimerə (unutqanlıq) yaxalanma riski daha azdır.**

İngiltərədə aparılan araşdırmada 55 yaşı olan 2 milyon insan iştirak edib. Onların hər birinin son 20 ildəki qidalanma və yuxu rejimləri, tibbi problemləri, qəbul etdikləri dərmanlar və s. nəzərə alınıb. Nəticə göstərib ki, arıq insanların Alzheimerə yaxalanmaq riski köklərdən 18 dəfə daha çoxdur.

Mütəxəssislər bunun səbəbini kök insanlarda vitamin çatışmazlığı probleminə daha az rastlanması ilə əlaqələndirirlər.



## Yeni elektrik avtomobili təqdim edildi

**Qeyri-adi idman avtomobilləri ilə tanınan Britaniyanın "Ariel" şirkəti elektriklə işləyən baqqi təqdim edib. Bu barədə auto.ru məlumat yayıb.**

O, ikinci nəsil "Nomad" seriyasının platformasına əsaslanır və müvafiq olaraq "E-Nomad" adlanır. Orijinal güc bloku sayəsində təxminən 3,5 saniyəyə 100 km/saat sürətlənməyə qadirdir. Hələlik elektrik avtomobili konsept hesab edilir, lakin 2026-cı ildə şirkət onun seriya istehsalına başlaya bilər.

"E-Nomad"ın elektrik mühərriki 281 at gücünə və 490 Nm malikdir.

Konseptlə adi "Nomad" arasındakı fərq kuzov panellərinin hazırlandığı materialdır. O, kətan lifləri olan biokompozitdən hazırlanıb və əlavə 9% çəkiyə qənaət edir. Bundan əlavə, "E-Nomad"ın kuzovu 30% daha aerodinamik hala gətirilib.

"Ariel" şirkətində qeyd olunub ki, onlar artıq elektrik baqqisinin istehsal versiyası üzərində işləyirlər, lakin onun istehsalına başlanılması ilə bağlı yekun qərar müştərilərin reaksiyası və bazardakı vəziyyət əsasında veriləcək. İlkin hesablamalara görə, əsas "E-Nomad" təxminən 80 min funt-sterlinqə (təxminən 105 602 dollar - red.) başa gələ bilər.

## Fransada misli görünməmiş fırıldaqçılıq

**Fransız fırıldaqçılar dələduzluq etmək üçün mərhum aktyor Alen Delonun süni intellekt vasitəsilə yaradılmış videosundan istifadə etməyə başlayıblar. Bu barədə "Le Figaro" qəzeti məlumat yayıb. Qeyd olunur ki, Fransa sosial şəbəkə hesablarında insanları fişinq proqramına keçməyə sövq edən saxta video peyda olub.**

"Əgər bu videoya baxırsınızsa, mən artıq ölmüşəm. Pullarımın bir hissəsini bütün fransızlara vermək qərarına gəldim. Onlayn kazinomda qalib gələ bilməsəniz, sizə 100 min avro verəcəyəm", - aktyorun süni intellektlə yaradılmış surəti videoda deyib.

Videoçarx "Google"un "Google Play" tətbiq mağazasını təqlid edən saxta veb-sayta keçməyə təşviq edir. Orada istifadəçilərə onun qızı Anuşka Delon tərəfindən hazırlandığı iddia edilən "Delon's Casino" adlı proqramı yükləmək təklif olunur. "Le Figaro" qeyd edir ki, proqram endirildikdə pul oğurlamaq məqsədilə istifadəçinin bank kartı rekvizitlərini və şəxsi məlumatlarını qeydiyyata alır.

Xatırladaq ki, Delon avqustun 18-də 89 yaşında Orlean yaxınlığında yerləşən malikanəsində vəfat edib.

## Bunları bilirsinizmi?

* Dünyanın ən sürətli böyüyən bitkisi bambuk, bir gündə 90 sm qədər uzanır.
* Ortalama bir aysberqin ağırlığı 20 milyon ton.
* 18 fevral 1979-cu ildə səhra çölünə qar yağmışdı.
* Dünyanın ən böyük şəkər ixracatçısı Kubadır.
* Eskimo dilində qar yağmurlarının fərqlərini təsvir etmək üçün istifadə edilən iyirmidən çox söz vardır.
* Ən yaxın olduqları nöqtədə, Rusiya və Amerikanın bir-birlərinə uzaqlıqları dörd km ʻdeyil daha azdır.
* Səudiyyə ərəbistanıda heç çay yoxdur.
* Monakonun milli orkestri ordusundan daha geniş bir heyətə malikdir.
* Zürafələr üzə bilməz.
* Ortalama olaraq, Amerikada gündə üç ədəd cinsiyyət dəyişdirmə əməliyyatı reallaşmaqdadır.
* İnsan beyninin 80%-i sudur.
* Amerikada hər saat 40 adam xərçəngdən həyatını itirir.
* İrəli doğru bir addım atıldığında, insan bədənindəki 54 əzələ çalışar.
* İnsan beyninin ortalama ağırlığı 1.3 kg.
* Birinin yüzünü xatırlamaq üçün beynin sağ tərəfi istifadə edilər.
* Yetkin bir insan gündə ortalama olaraq 23 min dəfə nəfəs alar.
* Qaşları yuxarı qaldırmaq üçün 30 əzələni hərəkətə keçirmək lazımdır.
* Kişilər qadınlara görə on qat daha çox rəng koru olurlar.
* Uşaqlar baharda daha çox böyüyür.
* Ortalama bir birə, öz böyüklüyünün 150 qatı yüksəkliyə tullana bilir.
* İnsanlar bədənlərində 300 ədəd sümüklə doğulurlar amma yetkin olduqlarında bu ədəd 206-ya düşür.
* Hər dörd amerikalıdan biri mütləq televiziyada görünür.
* Kəpənəklər ayaqlarıyla dad alırlar.
* Sarışınların əsmərlərə görə daha çox saçı vardır.
* İllərə görə ortalama alındığında , hər il eşşəklər tərəfindən öldürülən insan sayı təyyarə qəzalarında ölənlərin sayından daha çoxdur.
* Qadınlar kişilərə nisbətən iki qat çox göz qırpar.
* İnsan bədənindəki ən güclü əzələ dildir.
* Gözləri açıq saxlayaraq asqırmaq qeyri-mümkündür.
* İnsanlar beyinlərinin yalnız 10 % - ni istifadə edərlər.
* Fillər tullana bilməyən tək məməlidir.
* Elektrikli kürsü bir stomatoloq tərəfindən icad edilmişdir.
* Bir qarışqanın qoxu hiss etmə qabiliyyəti ən az bir itinki qədər inkişaf etmişdir.
* Yetkin bir ayı, bir at qədər sürətli qaça bilər.
* Siçanlar qusa bilməz.
* Asqırdığınız zaman, ürəyiniz də daxil olmaq üzrə, bütün bədən funksiyalarınız bir an üçün dayanar.
* Gözlərimiz heç bir zaman böyüməz. Amma burnumuz və qulaqlarımızın böyüməsi əsla sona çatmaz.

## Bu şəxslər vərəmə meylli olurlar

**Risk qrupuna aid şəxslər (İİV-ə yoluxanlar, onkoloji xəstələr, hormonal müalicə alanlar və tibb işçiləri) vərəmə meyilli olur. Bunu Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru İradə Axundova deyib.**

Onun sözlərinə görə, buna səbəb onların immun sistemlərinin zəif olmasıdır. Direktor bildirib ki, vərəm xəstəliyinin genetikaya aidiyyəti yoxdur, çünki yoluxucu xəstəlikdir: "Əgər evdə aktiv vərəm xəstəsi varsa və müalicə almırsa, o, digər ailə üzvlərini infeksiyaya yoluxduracaq".

## Uşaq muzeydə 3500 illik küpəni qırdı - cəzası isə...

**Muzeydə antik əşyaları seyr edən uşaq təsadüfən 3500 illik küpəni sındırıb. Bu barədə BBC yazır ki, insident İsrailin Hayfa şəhərindəki Ruben və Edit Hecht Muzeyində baş verib. Eramızdan əvvəl 2200-1500-cü illərə aid küpə "xüsusi cazibədarlığını" qorumaq üçün qoruyucu şüşəsiz nümayiş olunurmuş.**

Bu, 4 yaşlı uşağın diqqətini çəkib - o, küpənin içində nə olduğunu görmək istəyib və onu özünə tərəf dartıb. Nəticədə küpə aşıb və qırılıb. Muzey rəhbərliyi hadisəyə görə uşağa heç bir cəza istəməyib, hətta uşağı və ailəsini ekskursiyaya dəvət edib. BBC qeyd edir ki, küpə bərpa olunacaq və tezliklə muzeyə qaytarılacaq.

Səhifəni hazırladı: SELCAN


Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.